# AZƏRBAYCAN

ƏDƏBİ-BƏDİİ JURNAL



12

2009

# AZƏRBAYCAN


**12'2009**

**1923-cü ildən çıxır**

**AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİNİN AYLIQ ƏDƏBİ-BƏDİİ ORQANI**



**Baş redaktor İntiqam QASIMZADƏ**

**Baş redaktor müavini Vaqif YUSİFLİ**

**Məsul katib Tofiq MAHMUDOV**

***REDAKSİYA HEYƏTİ:*** **Afaq Məsud, Ağamusa Axundov, Elçin, Əjdər Ol, Əkrəm Əylisli, Ədalət Əsgəroğlu, İsa Hüseynov, Qılman İlkin, Məmməd Oruc, Mövlud Süleymanlı, Musa Yaqub, Saday Budaqlı, Salam, Vilayət Quliyev, Yaşar, Yusif Həsənbəy**



Redaksiyanın ünvanı:
Bakı - Az1000
Xaqani küçəsi, 25

Telefonlar:
Redaksiya -
498-78-10
438-51-89
493-75-81
Mühasibat -
493-29-41

Yığılmağa verilib:
25.11.2009
Çapa imzalanıb:
18.12.2009.
Sifariş 4605.
Tiraj 1000.
Kağız formatı
70x108 1/16 - 6,0
kağız vərəqi
12 çap vərəqi
16,8 şərti çap vərəqi

**E-mail:**
**azerbaijan@ayb.az**

**Qiymətİ**
**1 manat 50 qəpik**

**Bakı şəhəri, "Azərbaycan" nəşriyyatının mətbəəsində ofset üsulu ilə çap olunur.**

**Redaksiya çap olunmamış yazıları qəbul etmir.**



M.F.Axundov adına
Milli
Az
Kit xanası

# "FÜYUZAT"ın ŞAİRİ

Tam bir il - 1906-cı ilin 1 noyabrından 1907-ci ilin 1 noyabrına qədər Əli bəy Hüseynzadənin redaktorluğu, Hacı Zeynalabdin Tağıyevin maddi yardımı və imtiyaz sahibliyi ilə Bakıda, Nikolayevski küçəsindəki "Kaspi" mətbəəsində çap olunan "Füyuzat" jurnalının ən fəal yazarlarından biri və bəlkə də birincisi Məhəmməd Hadi olmuşdur. Hər nömrəsi 16 səhifədən ibarət olan, cəmi 32 sayı işıq üzü görmüş *(jurnalın 6 nömrəsi 1906-cı ildə, 26 nömrəsi isə 1907-ci ildə çıxmışdır)* bu məcmuənin 23, 24 və 31-ci nömrələri istisna olmaqla, qalan 29 nömrəsində M.Hadinin şeir, məqalə və tərcümələrdən ibarət əlli yazısı çap olunmuşdur. Jurnalda çap etdirdiyi əsərlərində M. Hadi əvvəlki idealına sadiq qalaraq, əsasən, maarif və mədəniyyəti, hürriyyəti, yer üzünün əşrəfi olan insana məhəbbəti təbliğ etmiş, həqiqi arzusunun millətinin səadəti olduğunu təkrar-təkrar bəyan etmişdir.

Əli bəy Hüseynzadə tərəfindən Həştərxandan jurnalın redaksiya heyətinə dəvət edilən M.Hadi "Həyat" qəzetində olduğu kimi, "Füyuzat"da da üç istiqamətdə fəaliyyət göstərmişdir: **a) şair kimi; b) publisist kimi; c) tərcüməçi kimi.**

"Füyuzat"ın ilk nömrəsindən son nömrəsinə qədər məcmuə ilə əməkdaşlıq etmiş M.Hadinin jurnalın ilk sayında forma və məzmunca fərqli dörd şeiri çap edilmişdir ki, "Fünun və maarif" şeiri bunlardan birincisidir. 17 beytlik qəsidə formalı bu əsər şairin, 1908-ci ildə Bakıda çap etdirdiyi "Firdovsi - ilhamat" kitabı istisna olmaqla, sonralar çap olunmuş heç bir kitabına düşməmişdir.

**Maarif tərbiyyətbəxşayi - hissiyyəti - vicdandır,**
**Maarif rövnəqəfzayi - riyazi - fikrətü candır -**

beyti ilə başlanan şeir ruhu etibarı ilə şairin bu əsərə qədər "Həyat" qəzetində və "Dəbistan" jurnalında dərc etdirdiyi "Məktəb", "Məktəb şərqisi", "İnsan nə ilə mükərrəm olur", "Lövheyi-təsviri-maarif", "Maarifə doğru" şeirləri ilə səsləşir.

Janrına görə müxəmməs olan "Amali-tərəqqi" əsəri beş bənddən ibarətdir. Azadlıq, istiqlal və maarifin təbliği niyyəti ilə yazılmış bu şeir mətnində heç bir dəyişiklik edilmədən həm "Firdovsi-ilhamat"da, həm də M. Hadinin poetik əsərlərinin nisbətən kamil nəşri hesab olunan kitablarında çap olunmuşdur *(Bax: M. Hadi. Seçilmiş əsərləri, I cild, "Elm" nəşriyyatı, Bakı, 1978 ; M.Hadi. Seçilmiş əsərləri, "Şərq-Qərb", Bakı-2005. Qeyd: Bundan sonra biz M. Hadinin sonrakı kitabları deyəndə bu nəşrləri nəzərdə tutacağıq - I.Q.)*. "Əsasi-fikrimiz tə'mini -istiqbali-millətdir", - deyən şair bildirir ki, cəhalət odu vətənin sinəsinə çalın-çarpaz dağ çəkib, cəhl və qəflətdən maarifin nuru, ziyası sönüb. Hər tərəfi yaramazlıqlar bürüdüyündən (M. Hadidə "xari-şaqavət") "vətən gülzarı xar olmuş", səadətdən əsər-əlamət yoxdur. Ən istəkli əməli "irtiqayi-mülki-millət" (millət mülkünün, vətənin yüksəlişi və inkişafı) olan şairə görə əsarət zəncirini qırmaq, millətin istiqlalını qazanmaq üçün iki başlıca yol var: TƏHSİL, MAARİF və HƏQİQƏT. Çünki:

**Həqiqət sayəsində kəsbi-qüdsiyyət qılar millət,**
**Həqiqətlə edər növ'i-bəşər təhsili-hürriyyət.**
**Həqiqətlə olur bağı-vətən gülzari-əmniyyət,**
**Həqiqət zahir olsa, parlayar ənvari-ülviyyət,**
**Həqiqətbin olanlar vasili-fövzü hidayətdir.**

Hüseyn Bayqaranın "Azərbaycan istiqlal mübarizəsi tarixində ilk milli şair" adlandırdığı M. Hadinin "Füyuzat"ın noyabrın 13-də çıxan ikinci sayında iki şeiri dərc edilmişdir. "Şirvanzadə" imzası ilə gedən birinci şeir "Təraneyi - qəmpərvəranə" adlanır. "Bilməm ki?" rədifli bu əsər on altı beytdən ibarətdir və qəsidə formasında yazılmışdır. Məzmun və ideya baxımından əvvəlki şeirlərdən fərqlənən bu əsəri şairin fəlsəfi lirikasının ən gözəl nümunələrindən biri hesab etmək olar. Bəşər, insan və cəmiyyət, istiqlal və istibdad barədə düşüncələrini bildirmək niyyəti ilə yazılmış şeirin ilk bəndi ilə şair oxucusunu bir çox suallarla baş-başa buraxır: - İnsan nədir? Əfsanə, ya həqiqət və bu varlığın cahana gəlməkdə məqsədi nədir? Səbəb nədir ki, fərzanələr belə dünyanın dolaşıq işləri qarşısında aciz qalmışlar? Niyə dünya zülm və sitəm səhnəsinə çevrilib və nədən "Bu zülmabadi-giytidə (ədalətsizlik, zülm yeri olan dünyada) fəqət bir namı var ədlin?".

"Amali-istiqbal, yaxud ümid və əməllər" şeirini şair "Amali - istiqbal" adı ilə "Firdovsi-ilhamat" kitabına da salmış və mətndə bir neçə düzəlişlər də etmişdir. Bu şeirdə və şeirə nəsrlə əlavə olunmuş sonluqda M.Hadi azadlıq, mədəniyyət barədə düşüncələrini qələmə alır. Xristofor Kolumbun Amerika qitəsini kəşf etmək üçün bu işə ümidlə girişməsindən söz açır, fransız ədibi Viktor Hüqodan gətirdiyi sitatlarla ("Həyat həqiqətlə, mövcudiyyət də xəyal və ümid ilə qaimdir", "Mövcudiyyət vicdandır, vicdan isə ümidlə, əməllə qaimdir" və s.) fikrini qüvvətləndirir və bu qənaətə gəlir ki:

**Ümmid ilə insan ediyor teyyi-mərahil.**
(İnsan ümid ilə mərhələləri keçib başa çatdırır - I. Q.)

Jurnalın 3-cü nömrəsində M.Hadinin iki şeiri nəşr olunmuşdur. "Bədayə" adlanan birinci şeir on bir beytdən, "Kitabi-həyat" şeiri isə müxəmməs formasında olmaqla on üç bənddən iba-

rətdir. Birinci əsərdə əsas mövzu həqiqətin tərənnümüdür. Şairin fikrincə, həqiqət nəzərləri ilə baxılarsa dünyanın Turi-Sina *(Ərəbistan yarımadası ilə Misir arasında yerləşən Sina yarımadasında Allah ilə Musa peyğəmbərin danışdıqları yer - İ.Q.)*, ağaclardan bir ağızdan "ya Musa" kəlməsinin eşidilməsinin şahidi olmaq olar. Şairə görə, həqiqət olmayan yerdə rəzalət ayaq tutub yeriyir, bütün qaranlıqlar, pisliklər hökmfərma olur.

"Kitabi-həyat" şeiri üsyankar təbiətli şairin fəryad və şikayətlərinin hələ yaradıcılığının ilk illərində belə poeziyasının əsas mövzularından biri olduğunu təsdiqləyir. "Bütün əskiliyə qarşı üsyan edən, haqsızlığa qarşı meydan oxuyan və ona ilham verən ən ziyadə sərbəstliyi, hürriyyəti şeirlərində tərənnüm edən"(A.Şaiq) şair bildirir ki, "ürəyi azadlıqsevərlərin qəlbi kimi yaralı olan" dünya şivən səhnəsidir, buna səbəb isə "bizdə asari-mürüvvət hissinin yoxluğudur". Cahan "bir sürü cəllad əlindən əşkbar olmuş", tərəqqi istəyənlər zindan küncləri̇nə atılmış, zaman-zaman haqq deyən dillər kəsilmiş və:

**Dari-zülm olmuş cahan, yoxdur ədalətdən nişan,**
**Təlxi-abi-cövr ilə aludədir nasutiyan.**

İşlərin bu qədər qarmaqarışıq olmasının səbəbi, şairin fikrincə, dünyada həqiqət və hürriyyətin olmamasındadır. "Hüzni-ümumi çəkməkdən dil yarədir", - deyən şair bu əqidədədir ki, oxucusu onu başa düşəcək, dünyanın yaxşılıqlarını yox, pisliklərini qabarıq şəkildə verdiyi üçün onu qınamayacaqdır. Əsərdə məqsəd yatmış vicdanları oyatmaq, daşlaşmış ürəkləri yumşaltmaqdır

Jurnalın dördüncü nömrəsində M.Hadinin 26 beytdən ibarət olan bir şeiri - "Hissiyyati-madərana və yaxud övlad bəsləmək hissləri" çap olunmuşdur. "Firdövsi-ilhamat" kitabına "Hissiyyati-madərana" adı ilə daxil edilmiş bu şeirin mətnində dəyişiklik edilməmiş və şeir sonrakı nəşrlərə də "Firdovsi-ilhamat"da olduğu kimi daxil edilmişdir. Əsas mövzusu ana-bala sevgisindən ziyadə təlim-tərbiyə ilə bağlı olan bu əsərində şair analara xitabən deyir:

**Biədəb bəsləməyin tiflanı,**
**Mərifətpərvər edin tiflanı.**

"Məhəmməd Hadi Şirvani" imzalı mürəbbe formasında 9 bənddən ibarət "İsmət, yaxud əfif olan zatların xəsaili" adlı, "Firdovsi-ilhamat"a və sonrakı nəşrlərə düşən şeirin sonuncu bəndinin ilk - "Şeiri rənasında söylər arifi-Rumi Ziya" misrasına türk şairi Ziya Paşanın (1825-1880) aşağıdakı iki misrası ilə verilmiş izah kitablara düşməmişdir:

**Lənət ola ol malə ki, təhsilinə anın,**
**Ya irz, ya namus, ya qeyrət ola alət.**

Mövzu və ideyaca jurnalda çap olunan əvvəlki şeirlərdən bir o qədər də fərqlənməyən bu əsərdə baş leytmotiv insanın öz şəxsiyyətini qorumaq üçün yollar axtarması, yaşayışında kimsə, ə boyun əyməməsidir. Şair bu əqidədədir ki:

**Kimsəyə qılmaz təməllüq həqpərəstan nan üçün,**
**Çaki-ismət eyləməz alicənaban nan üçün,**
**Abi-nayabi-ifafi-tökməz insan nan üçün,**
**Tərki-məslək eyləməz ərbabi-irfan nan üçün.**

Mürəbbe şəklində olan "Nidaül-vətən" şeiri "Firdovsi-ilhamat" kitabına düşsə də, şairin 1920-ci ildən sonra çıxan kitablarına düşməmişdir. "Dünyada əməlimiz fəqət əmari-vətəndir" misrası ilə başlanan bu əsərdə vətənin "gülşəni-rənası"nın solmasından, "vicdani-münafiq" (ikiüzlü, riyakarların vicdanı) kimi "bünyanı" (özülü, təməli) pozulmuş, cahillərin fikirləri kimi halı pərişan vətənin vəziyyətindən ürək ağrısı ilə söz açan şair bildirir ki, bizlərdə vətən məhəbbəti olmayınca, vətənin şan və şərəfi hifz, himayə edilməyincə nə vətənə, nə də millətə nicat yoxdur.

Jurnalın 6-cı nömrəsində M.Hadinin üç əsəri çap olunmuşdur. Bunlardan birincisi "Dəli şairə dəlilər mühibbi olan bir quşun köməyi. Tövsiyeyi-mürğ" adlı şeir, ikincisi - "Müctəhid ağa Təbatəbayı həzrətlərinin məktubu" sərlövhəli tərcümə, üçüncüsü isə "Bakı tarixindən bir nəbzə" adlı irihəcmli bir məqalədir. Şeirin altında "Dəlilər mühibbi", tərcümənin altında "Mütərcim M.H.", məqalənin altında isə "M.Hadi" imzası qoyulmuşdur.

Şeir jurnalın birinci nömrəsində "Dəli şair" imzası ilə çap olunmuş "Heyrət, yaxud bir mələyin insanlara xitabı" adlı on iki beytlik bir şeirə cavab kimi yazılmış, vəzn, qafiyə və rədif sistemi belə saxlanılmışdır. Yeri gəlmişkən qeyd edək ki, "Füyuzat"in birinci nömrəsində çıxan şeiri tədqiqatçılardan biri M.Hadinin şeiri hesab etmişdir ki, bizcə bu fikir doğru deyil . Şeirin M.Hadinin olmadığını sübut üçün bircə faktı söyləmək yetərlidir. Altıncı nömrədə çıxan şeiri M.Hadi öz əsəri kimi "Firdovsi-ilhamat"a daxil etmiş, birinci nömrədəki şeiri isə məhz başqa müəllifin olduğu üçün kitabına salmamışdır. *(Bizcə, şeirin müəllifi Əli bəy Hüseynzadədir)*. M.Hadinin bu əsəri sonrakı kitablara da salınmış, başlıq istisna olmaqla (həm "Firdovsi-ilhamat"da, həm də sonrakı nəşrlərdə şeirin sərlövhəsi belədir: "Tövsiyeyi-mürğ"), mətn eyni ilə saxlanılmışdır.

M.Hadi şeirlərində görünməkdə olan ümumi kədər - "hüzni-ümumi" bu əsərin hər beytində görünməkdədir. Quşun dilindən: "Niyə insanlıq gülzarını yandırırsınız?" sualı bir qədər sonra acı ittihama çevrilir. İnsana ədalətlə hökm etmək buyuruğu Allah tərəfindən verilsə də ("Atılmış guşeyi-nisyanə nəssi-təhkumu biledi"), o, buna əməl etmir. Murdar nəfsinə uyaraq qan tökür, məzlumun haqqını yeyir, bu azmış kimi nə haqq söz, nə də Tanrıdan gələn fərmanlar ona



təsir etmir. İnsanın cahilliyi ucbatıtından "cahan bir qətlgah olmuş", o isə hələ də cəhalət eydinə - bayramına qurbanlar kəsməkdə davam etməkdədir. Bu hala heyvanlar lənət oxuduğu halda (lənətxandır heyvanlar), insanlar pis əməllərdən əl çəkmir. Buna səbəb nədir? Səbəb şairin yaradıcılığında təkrar-təkrar rast gəldiyimiz bir fikrin - ümumi məhəbbətin insan qəlbinə hakim olmamasıdır.

"Füyuzat"ın 7-ci nömrəsində M.Hadinin "Təbriki-eydi-əhza" və "Təraneyi -milli" adlı iki şeiri dərc olunmuşdur. 9 bəndlik birinci şeir yeddilik, 10 - bəndlik ikinci şeir isə altılıq şəklindədir. Müvafiq olaraq "Firdovsi-ilhamat" kitabında gedən şeirlər "Firdovsi-ilhamat"dan götürülərək sonrakı kitablara da daxil edilmişdir.

Şeirlərdən birincisi müqəddəs Qurban bayramına həsr olunmuş və "Firdovsi -ilhamat"dakı mətndə sərlövhədən sonra belə bir qeyd verilmişdir: "Eydi-əhzanın hülulu münasibəti ilə söylənilmişdir".

"Bəşarət, əyyühəl-ixvan, bu gün bir eydi-zişandır" - misrası ilə başlanan və bütün bəndləri "Bu gündə seyyidül-kövneyn islamə səlam eylər, Vifaqi-milləti gördükcə ərzi-ibtisam eylər" beyti ilə bitən şeirdə Qurban bayramının sülh, əmin -amanlıq, bərabərlik bayramı olduğu qeyd olunsa da, əsas məsələ yenə də maarifin, elmin və mədəniyyətin təbliğidir.

Müsəddəs - altılıq şəklində yazılan "Təraneyi-milli" şeiri M.Hadi lirikasının başlıca mövzularından biri olan millət və onun aqibəti məsələsinin şərhinə həsr olunmuşdur. Bütün bəndləri "Açıldı sübhi-sadiq, xabdən millət oyanmazmı?" bədii sualı ilə tamamlanan şeirdə millət və onun gələcəyi barədə şairin duyğu və düşüncələri çox yüksək bədii və fəlsəfi ümumiləşdirmələrlə öz həllini tapmışdır.

"Firdovsi-ilhamat"a və "Seçilmiş əsərlər"ə düşən "Fəzaili-insaniyyə" və "Saqiyə bur niyazi-ricaməndanə" şeirləri "Füyuzat"da "Məhəmməd Hadi Şirvani" imzası ilə çap olunmuşdur. Məsnəvi formasında yazılmış birinci şeirə jurnalda sərlövhədən qabaq "Bir müqəddimə" sözləri yazılmış, birinci - "İnsan o zatdır ki, vəzifəşünas ola" misrasına "Millətin vəkillərinə xitabdır" cümləsi ilə izahat verilmişdir. "Firdovsi-ilhamat"da bu qeyd "Dövlət dumasında cəm olan millət məbuslarına xitabdır" qeydi ilə əvəzlənmişdir.

10 beytdən ibarət "Saqiyə bir niyazi-ricaməndanə" şeirində şairin gəldiyi qənaət bundan ibarətdir ki, gizli sirlərin açılması üçün mütləq şəkildə elm, mərifət sahibi olan insanların özləri ruhən, mənən azad olmalıdırlar. Cəmiyyətin qayğılarından azad olub öz şəxsi dünyasını yaşayanlar şairin nəzərində cahil və nadandırlar ki, onların şüuru, ağlı maarif ziyası ilə işıqlanmayınca, həmin şəxslərə nicat yoxdur.

Jurnalın 10-cu nömrəsində M. Hadinin "Fəzaili-insaniyyə" və "Pəriyi -vicdan" adlı iki şeiri dərc olunmuşdur. Jurnalın 9-cu nömrəsində çıxan "Fəzaili-insaniyyə" şeiri ilə eyni adda və təxminən eyni məzmunda olan birinci şeirin sərlövhəsindən sonra "Məbuslarımıza bir xitab" sözləri yazılmışdır və şeiri bir növ əvvəlki şeirin davamı da adlandırmaq olar.

Şeir M.Hadinin kitablarının heç birinə düşməmişdir. 9-cu nömrədə çıxan "Fəzaili-insaniyyə"dən fərqli olaraq, bu şeirdə millət vəkillərinə xitabdan çox Vətənin dərd və möhnətlərindən söz açılır. "İştə ateşzarə dönmüşdür vətən bidaddən, Dağidari-hüznü qəmdir qəhri-istibdadidən" misraları ilə başlanan şeirin məram və ideyası insanları öz hüquqları uğrunda mübarizəyə səsləməkdən ibarətdir. Əvvəlki şeirlərində olduğu kimi, bu əsərində də "siyasi lirikası zamanın bədii tərcümeyi-halı, yaşadığı illərin ictimai-siyasi hadisələrinin romantik salnaməsi" olan şairi düşündürən şəxsi səadət deyil, millətin, xalqın, bütövlükdə bəşəriyyətin səadəti və xoşbəxtliyi məsələsidir.

"Düxtəri-napakdamən sanmayın hürriyyəti" misrası ilə başlanan, məsnəvi formasında səkkiz beytdən ibarət olan "Pəriyi-vicdan" şeiri də M.Hadi lirikasına xas ənənəvi - hürriyyət və azadlıq mövzusundadır. Hürriyyəti behişt bağçasının hurisi adlandiran şair qeyd edir ki, ürəyimiz istibdad oxları ilə yaralanıb və biz hürr, azad yaşamağa layiq ikən sitəmlərə mübtəla olmuşuq. Azadlığa:

**Pərdədə saxlanma, çıx, ey sevgili dildarımız,**
**Xəndəzari behcət olsun könlümüz, rüxsarımız, -**

deyə müraciət edən şair qəti şəkildə və əminliklə bildirir:

**- Sənsən, ey hürriyyət, ancaq bizləri azad edən.**

"Dumanın yövmi-guşadı" şeiri İkinci Dövlət Dumasının işə başlaması münasibəti ilə qələmə alınmışdır.

**Şanlı bir yovmi-səfadır, ruzi-işrətdir bu gün,**
**Bir məsərrətbəxşi-vicdan, ani-behcətdir bu gün, -**

misraları ilə başlanan şeirdə şair fəaliyyətə başlayan Dövlət Dumasının millətin taleyində əhəmiyyətli rol oynayacağına inanır və "Müjdə ey əhrar, huri-eydi -hürriyyət pədid", - deyə Dumanı alqışlayır. Ona elə gəlir ki, xalq tərəfindən seçilmiş (əslində, millət vəkillərinin əksəriyyəti seçilməmiş, hökumət tərəfindən təyin edilmişdi - İ.Q) millət vəkillərinin (M.Hadidə məbuslar) səyi nəticəsində istibdada son qoyulacaq, azadlıq pərisi cilvələnəcək, səadət günəşi yer üzünü işıqlandıracaqdır.

Qeyd edək ki, bu şeir də M.Hadinin sonrakı kitablarına düşməmişdir.

M.Hadi lirikasının həm forma-məzmun, həm də ideyaca ən mükəmməl nümunələrindən biri "Bir əməlim" şeiridir. "Firdovsi-ilhamat"a və sonrakı kitablara düşən müsəddəs formalı bu şeirin jurnal variantında sərlövhədən sonra belə bir misra verilmişdir: "Məni mükərrər edən var

zadə ilə həmfikir idi və bu "xəsteni-mərizi" sağaltmaq üçün yollar axtarırdı. Bu yollardan biri olaraq o, heç şübhəsiz ki, qələmi, sözü, xalqın, millətin, geniş mənada bəşəriyyətin səadəti naminə xidmətə yönəltməkdə görür, qələm yoldaşlarını dərdi, illəti ört-basdır etməyə yox, onu göstərməyə və təşxis etməyə çağırırdı.

M.Hadinin mətnində heç bir dəyişiklik edilmədən "Firdovsi-ilhamat"a**(36;99-101) və sonrakı kitablarına düşən "Gözlərin" rədifli şeiri yurnalın 26-cı sayında dərc olunmuşdur.

**Qıldı, ey ahu, məni vəhşi qəzali gözlərin,**
**Etdi səhragərdi - cənnət laübali gözlərin,-**

mətləli 15 - beytlik bu qəzəl şairin məhəbbət mövzusunda olan çox az sayda əsərlərindən biridir. Şeirdə sevən bir aşiqin hiss-həyəcanları, məşuqəsindən yana keçirtdiyi sarsıntılar və bu səbəbdən düşdüyü hallar çox ustalıqla və emosional bir tərzdə ifadə olunmuşdur.

Jurnalın bu sayında M.Hadinin eyzən "Gözlərin" qəzəli kimi lirik-aşiqanə ruhda olan, insan qəlbini ehtizaza gətirən "Mənim" rədifli bir qəzəli də çap olunmuşdur. Məcmuədə "Bir aşiqi-hürriyyətin ehtisasati-ruhiyyəsini təsvir və iraə edən bir lövhədir", "Firdovsi-ilhamat"da "Bir aşiqi-nazənini-vətənin ehtisasati-ruhiyyəsini təsvir və iraə edən bir lövheyi-giram" adı ilə çap olunan bu əsər sohrakı kitablara jurnalda olan adla daxil edilmiş və tərtibçilər tərəfindən belə bir qeyd verilmışdir: "Bir aşiqi-nazənini-vətənin ehsasati-ruhiyyəsini təsvir və iraə edən bir lövheyi-qiram". Deməli, ilk sərlövhənin şeirdəki azadlıq ideyasına müvafiq olan "aşiqi-hürriyyət" surətini "Fi"dakı sərlövhədə ancaq lirik-vətənpərvərlik səciyyəsi daşıyan "aşiqi-nazənini-vətən" surəti əvəz etmişdir".

Bu şeiri nakam bir aşiqin həsb-halı, monoloqu da adlandırmaq olar. Şeirin ilk beytində cahanda nəsibinin qüssə-qəm olduğunu bildirən şair:

**Rəmidə olmada məndən şu huri-kəpkixüram,**
**Bu seydgəhdə şikarım olur qürab mənim, -**

deyə bəxtindən gileylənir və təəssüflə söyləyir ki, sevgili, sevimli gözəlim məndən hürküb qaçdığından, ovladığım qarğadan başqa bir şey olmur. Belə bir şeiri misra -misra, beyt-beyt təhlilə ehtiyac olsa da, böyük Xətib Təbrizinin "Şeiri şərh etmək onu yazmaqdan çətindir" fikrini əlimizdə əsas tutaraq heç bir şərh vermədən şeirin bir neçə beytini nümunə gətirməklə kifayətlənirik.

M.Hadinin jurnalın son sayında "Əbdüssəlimzadə M.Hadi" imzası ilə "Əlvida, yaxud acı bir iqrar" adlı mürəbe formasında olan 8 - bəndlik bir şeiri çap olunmuşdur. Şeir mətnində heç bir dəyişiklik edilmədən Həştərxanda çıxan "Bürhani-tərəqqi" qəzetinin 18 noyabr 1907-ci il tarixli sayında və sonrakı kitablarında çap olunmuşdur.

Dolayısı ilə "Füyüzat"ın qapadılmasına etiraz kimi düşünülmüş bu əsərində M.Hadi yenə də sadiq olduğu ideyaları tərənnüm obyektinə çevirir və onsuz da İslam aləminə olan məhəbbətdən doğan umu-küsülər, giley-güzarlar bu şeir üçün də aparıcı xəttə çevrilir. "Ah, bədməstü xarabız cümləmiz bir camdan" misrası ilə başlanan şeirin elə ilk bəndindən şair rəngləri tündləşdirir və bildirir ki, qəflət yuxusuna elə dalmış, cəhalət girdabına elə yuvarlanmışıq ki, min günəş doğsa bizi vahimələr, şübhələr gecəsinin xofundan ayılda bilməz. Səbəblər çoxdur və ən başlıcalarından biri də, İslamdan, bu gözəl dindən, onun bəşəri və dünyəvi qayda-qanunlarından uzaqlaşmağımızdadır.

Elə bir hala düşmümük ki, "Yox iki qardaş İslamda yekbal ola". Şairin düşüncəsinə görə bu cür ayrılıqların, fikir birliklərinin yoxluğunun axırı fəlakətlərlə nəticələnəcək. Nicat üçün nə lazımdır? Şairə görə qəlbi "nuri-irfanla" - maarif işığı ilə nurlanmayan şəxslər rəzalət və cəhalətə qalib gələ bilməzlər, əksinə dinin və məzhəbin əsasını, sütünlarını "rəxnədar" edərlər. "Ütlubul elmə vəlov biz-sin...." buyurmuşdur nəbi *(Quranın "Beşikdən məzara qədər oxu, elm öyrən" ayəsinə işarədir. - İ.Q)* hikmətini müsəlman qardaşlarına xatırladan şair bildirir ki, məhz elmə önəm verməklərinin nəticəsidir ki, Qərb ölkələri, xüsusən Firəngistan gündən-günə tərəqqi edir.

* * *

"Füyuzat" məcmuəsində dərc etdirdiyi poetik əsərlərinin təhlilindən göründüyü kimi, M. Hadi ənənəsinə sadiq qalaraq VƏTƏN, MİLLƏT və Tanrının yaratdığı məxluqatın ən əşrəfi olan İNSAN, onun yaşam tərzi, keçmiş, bu gün, gələcək haqqında fikir və mülahizələrini irəli sürür və bu qənaətə gəlir ki, bəşəriyyətin salamatlığı maddiyyatdan daha çox mənəviyyatla bağlıdır. İnsanın mənəvi cəhətdən kamil olması isə təlim, tərbiyə və böyüyüb boya-başa çatdığı mühitdən asılıdır. Cəmiyyət azad olmayınca, əxlaqi və ümumbəşəri dəyərlərə söykənən azad düşüncələrə meydan verilib bunların səmərəsindən bəhrələnməyincə nə kamil insan, nə də mükəmməl həyat tərzindən bəhs etməyə dəyməz. İnsan nicat və səadəti axtarmamalı, onu qazanmaq üçün mübarizə etməlidir. Ən vacib şərt kimi şəxsi istəklərin bəşəri mənafelərə qurban verilməsi gərəkdir ki, bunun da baş yolu mənəvi kamillikdən keçir və, deməli, şikəst mənəviyyatın bəhrəsi zorakı, hərki-hərkiliyə əsaslanan cəmiyyət - zalımlar və məzlumlar dünyası, mükəmməl mənəviyyatın bəhrəsi isə insanın insan kimi yaşamaq istəklərini reallaşdıran azad, hürr cəmiyyət olacaqdır.

**İslam QƏRİBLİ**

Bu zaman, təbiidir ki, kitabın hansı növü olursa-olsun, Qərbdə olduğutək, bahalı bir əşyaya çevrildi. Əgər keçmişdə kitabı hazırlayanlar onun tərtibatına, kağızının keyfiyyətinə o qədər də əhəmiyyət vermirdilərsə, indi, yeni texnologiyanın imkanlarına müvafiq və yaxşı qazanc əldə etmək üçün kitabların üzü və içi üçün müxtəlif materiallardan, tutalım, par-par parıldayan müxtəlif qızılı və gümüşü kağız növləri, "lüminasiya" üsulu və s.-dən istifadə etməklə kitabın qiymətini birə on qaldırdılar. Halbuki, tez-tez müraciət olunan bir çox zəruri kitabların həddindən zəngin tərtibatda nəşr edilməsinə və onları çox bahalı qiymətlə bazara çıxarılmasına heç bir ehtiyac yoxdu.

Həmən kitablar arasında yaxın keçmişə məxsus naqis bir ənənə-yenə azman "batmankitablar" ortaya çıxdı. "Batmankitabları" hazırlayıb ərsəyə gətirənlər elə bilirlər ki, kitabın ölçüləri nə qədər böyük olsa, onun ləyaqəti, nüfuzu və hörməti də o qədər böyük olar. Əslinə qalarsa, bir kitabı bucağa qoyub bu gün ona sitayiş etmək nə qədər gülüncdü, indi vaxt o vaxt deyil. Başqa sözlə, naşir "az olsun, bahalı olsun" deyə, yaxşı qazanc əldə etmək istəyir. Halbuki, "çox olsun, ucuz olsun" prinsipi burada əsas götürülərsə, hər iki tərəf tam razı qalmış olar. Lakin çağdaş sıravi kitab hərisi bugünkü bahalı kitabları heç cür almaq iqtidarında deyildir. Əslinə qalarsa, kitabın kseroks vasitəsilə üzünü çıxarmaq əsl kitabın özündən qat-qat ucuz başa gəlir. Bunlar nəzərə alınmalıdır.

Əgər bu gün Kitabı uşaqlar üçün bir oyuncaqa, əyləncəyə çevirmək istəyiriksə, bunu hardasa başa düşmək olur. Digər tərəfdən, düşünürsən, İnsana uşaqlığından Kitabı "oyuncaq və əyləncə növü"-tək təqdim etməklə biz onu elə uşaqlıq çağlarından Kitaba bir oyuncaqtəki baxmağa alışdırmırıqmı? Həqiqətdə də yaşlılar üçün nəzərdə tutulmuş kitabları "batmankitab" və ya bahalı əşya, al-əlvan "oyuncaqlara" çevirməyə heç bir ehtiyac yoxdur. Əksinə, kitab nə qədər yığcam və sadə olarsa, onu gəzdirmək, kitab rəfinə yerləşdirmək asan olur. Elə ötən çağların müqəddəs miniatür kitablarını yada salaq. Həmən kiçik kitablardan bu gün də istifadə olunur.

**Kitab dünən, bu gün**

Adətən deyirlər ki, Televiziya, Kompüter və İnternet zamanında ənənəvi kitaba, qəzetə artıq yer yoxdur, guya televiziya və kompüter Kitabı sıxışdırıb aradan çıxardaraq, onu tədricən əvəz etməkdədir. Bu müddəada çox böyük bir həqiqət var. Əslində, bu gün insan ona lazım olan hər hansı informasiyanı kompüterdən əldə edə bilir. Digər tərəfdən, zaman göstərdi ki, bir vaxtlar ənənəvi roman, povest və hekayə janrlarında yazılmış ədəbi-bədii kitabların qəhrəmanlarının görkəmi, uzun-uzadı və müfəssəl təbiət təsvirlərini hərə öz fərdi təxəyyülündə özünəməxsus tərzdə canlandırırdı. Bu gün isə buna ehtiyac yoxdur. Müasir mütaliəçi həmin "povest və romanlar"dan aldığı ləzzəti heç bir təxəyyülə varmadan videokaset və teleseriallardan, deyək ki, "bişmiş", hazır şəkildə mənimsəyir. Onu kitabdakı "şirin məzmun, macəra", deyək ki, gəlişigözəl "poetik" ifadə və bənzətmələrlə təsvirlənmiş uzun-uzadı təbiət mənzərələri də maraqlandırmır. Bunların televiziya ekranında mükəmməl təcəssümünü görüb təbii səsin eşidir. Başqa sözlə desək, bu gün mütaliəni sevən insan, artıq bir *tamaşaçı* tək, teleekranda onların görümlü (vizual) və səsli oxşarını sabiq donmuş tablo halında deyil, daimi hərəkətdə seyr edir və bununla ehtiyacını ödəyib tədricən "teleekranın əsiri"nə çevrilir, asudə vaxtda kitab oxumağı tərgidir. Eyni vəziyyət müasir təsvir sənətində də baş verir.

Açıq deyilməsə də, yaxın keçmişdə və bizim günlər yazılan "povest, roman, pyes" adlandırdığımız ənənəvi ədəbi və səhnə janrlarının 99 faizi, əslində, sonradan, bir qayda olaraq, videokaset, televiziya filmi və seriallara çevriləcək bu və ya digər ekran əsərinin əsasını təşkil edən yazılı bir layihə, potensial bir "ssenari" kimi nəzərdə tutulub, öz ekran təcəssümünü gözləyir. Artıq öz "müstəqilliyi"ni itirmiş bu cür "ədəbi əsərlər"in özünəməxsus dil xüsuyyətləri, müəllifin fərdi üslubu, gözlənilməz söz oyunu, başqa sözlə desək, sırf yazılı və şifahi ədəbiyyata, sözə, milli dilə xas olan incəliklər öz önəmini, gərəkliliyini itirir, üçüncü-dördüncü plana çəkilərək praqmatik çağdaş qiraətçi üçün artıq heç bir əhəmiyyət kəsb etmir. Burada yalnız, macəralar, qısa mükalimələr ön plana çıxardılır. Mütaliənin get-gedə aradan çıxmasının, deyək ki, oxu mədəniyyətinin aşağı düşməsinin başlıca səbəbi də elə buradadı.

Qısaca desək, sabiq oxucu bu gün potensial bir "teleekran tamaşaçısı"na çevrilərək, artıq ədəbi janrların *görümlü və səsli təcəssümünü* "kağız üzərində həkk olunmuş sözə və yazı tər-zi"nə üstün tutur. Ekran çəkilişi üçün nəzərdə tutulmuş "ssenari" janrına hal-hazırda tələbat çoxdur. Bu gün qələmə alınan ənənəvi ədəbi əsərlər isə, demək olar ki, artıq kitabsevər və mütaliəçilər üçün deyil, *ekran tamaşaçısı, videoseyrçiyə* ünvanlanır. Bu cür əsərlər, istər detektiv olsun, istər macəra və ya məhəbbət ro-manı, deyək ki, artıq bədii ədəbiyyatın "malı" deyil, "ekran malı"na aid edilir.

Bununla belə, qədim tarixə malik ənənəvi Kitab da yerində saymır, sabiq mövqeyini qoruyub möhkəmlətmək üçün Televiziya və Kompüterin bu gün ondan mənimsəyə bilmədikləri xüsusiyyətləri yenidən özünə qaytarmağa, müasir cəmiyyətə gərəkli olmaqdan ötrü yeni zamana uyğun "don" axtarır. Misal üçün, son zamanlar artıq elə müasir bir, deyək ki,"kitab növü" meydana çıxmışdır ki, uzun zaman kağızdan hazırlanan ənənəvi kitabın, artıq biçimi, cildləmə, vərəqləmə və digər xüsusiyyətlərinə ehtiyac qalmır. Sözün qısası, bu və ya digər kitabın disketini orta kitab boyda yastı bir "lövhəciyə" keçirməklə onu "doldurur" və sonra, kompüterdə olduğu tək, işıqlanan ekranda düyməni basmaqla kitabın mətnini "vərəq-vərəq" oxumaq olur. Ondan cib telefonu kimi təyyarədə, maşında, metroda istifadə etmək mümkündür. Demək olar ki, bu hələ başlanğıcdır, bu istiqamətdə axtarışlar aparılır və kim bilir, ənənəvi kitab nə kimi biçim dəyişikliklərinə uğrayacaqdır. Ola bilsin ki, lap yaxın gələcəkdə həmən "lövhəcik"də "Qurani-kərim" və başqa müqəddəs Kitabları oxumaq mümkün olacaqdır, bəlkə də hardasa artıq oxuyurlar. Qoy olsun, məgər bu gün "Noutbuk" dediyimiz kompüter növü özünəməxsus müasir kitab deyilmi?

Kitab bu gün ənənəvi cildini, biçimini dəyişsə belə, öz əhəmiyyətini əsla itirməyib, çağdaş zamanda da kitabsevərlərin xidmətindədir, bugünkü həyatımızı onsuz təsəvvür etmək hələlik qeyri-mümkündür. Onu hər vaxt, istər kitabxana, istər evdəki kitab rəfindən götürüb, dəfələrlə istənilən informasiyanı əldə etmək mümkündür. *"Kitab və oxu mədəniyyəti millətin, xalqın mədəni və mənəvi*



*səviyyəsinin bariz göstəricisidir"* desək, yanılmarıq. Əski dövrlərin insanları öz həyatı, mənəvi-əxlaq normaları, davranışları və münasibətlərini Allah tərəfindən göndərilmiş üç müqəddəs Asimani Kitab - *"Quran"*, *"İncil"*, *"Tövrat"* (bu gün onları ən müasir Kitab - *Teleekran* əvəz edibdir) əsasında qurmuş və bu gün də qurmaqdadırlar. Öyrənilmişdir ki, mütaliə ilə məşğul olan insan heç vaxt bu və ya digər cinayətə qurşanmaz, başqa insanı öldürməz, özgə malına göz tikməz. Kitabı sevən insan heç zaman boş-boş, mənasız söz-söhbət və əməllərlə məşğul olmaz və s.

*"Mənim pulum var, mən hər şeyə qadirəm"* demək, əslində, çox yanlış müddəadır. *"Mənim biliyim var, ali savadım var, mən hər şeyə qadirəm"* deyən həyatda həmişə qalib gəlir. İnsanı pul, var-dövlət deyil, yalnız Kitab, Bilik və Savad zənginləşdirir, onu digərilərdən üstün edib ətrafındakıların hörmətini qazandırır. Bu keyfiyyətlər onun cəmiyyət üçün nə qədər gərəkli olduğunu, həm də pul qazanmaq şansını iki-üç qat artırır.

Kitabların əksəriyyəti insanları yalnız yaxşı yola, insanlığa çağırır. Bu gün oxucu keçmişdə olduğu tək, yenə Kitabda yalnız "bu dünyaya gəlib necə yaşamaq, nə naminə ömür sürmək" və bu kimi çox ciddi və həyati suallara cavab axtarmaqdadır. Bu suallara çağdaş Teleekran və Kompüter cavab vermək iqtidarında deyillər. Amma Kitab bunlara cavab verir. Ötən-keçən tarixi faktlarla, keçmişin həyat təcrübəsilə, vaxtilə baş vermiş ibrətamiz oxşar hadisələr və dahilərin həyat təcrübəsi və müdrik kəlamları ilə. Odur ki, hal -hazırda Kitabdan üz döndərmək heç cür mümkün deyil, biz ondan bu gün də bəhrələnməyi bacarmalıyıq. Onun ən ilkin qayəsini, əvvəlki mahiyyətini, insanın bu dünyadakı sağlam yaşayış qaydalarına yiyələnməsi missiyasını özünə qaytarmaqdan ötrü yollar axtarılmalıyıq.

Bizim günlər yerli kitabsevərlər və kitab mağazalarının sayı kəskin surətdə azaldığı halda, Bakıda nəşr olunan kitabların sayı get-gedə artır, məzmun sarıdan seçim genişlənir. Rusiyadan ixrac olunmuş hər cəhətdən yüksək keyfiyyətli kitablar mağazaların beşdə dörd hissəsini tutub, professionallıq və kitab mədəniyyəti sarıdan özfəaliyyət və həvəskar təsiri buraxan, heç bir beynəlxalq standartlara, burada qəbul olunmuş qayda -qanuna uyğun gəlməyən yerli çap məhsulu ilə mənasız rəqabətə girişərək onu çox-çox geridə qoyub "bazardan" sıxışdırır. Ümumilikdə, qonşu ölkələrin mətbəələrində çap edilmiş kitablarımız istisna olunarsa, ölkəmizdə nəşr olunan kitablar xaricdə ərsəyə gətirilmiş kitabların zahiri görkəmi, çap keyfiyyəti ilə rəqabətə girmək iqtidarında deyil. Bizcə, başqa yerlərdə qəbul edilmiş qayda-qanuna görə, ingilis, fransız, rus və digər əcnəbi dillərdə çap olunmuş kitablar xüsusi *"Xarici kitablar mağazası"*nda satılmalıdır. O biri mağazalarda isə, bir qayda olaraq, yalnız dövlət dilində nəşr olunmuş yerli kitablara geniş yer verilməlidir.

Kitab və oxu mədəniyyətimizi qaldırmaq istəyilə yanaşı, Azərbaycan Kitabını (istər klassik, istər müasir) dünyaya tanıtdırmalı, önəmli kitabları mütləq xaricdəki soydaşlarımıza çatdırmalıyıq. Bu gün xaricdə, xüsusən çoxsaylı Azərbaycan diasporu məskunlaşmış ölkələrdəki səfirliklərimizdə və buradakı "milli mədəniyyət mərkəzləri" nəzdində, o cümlədən Orta Asiyada, Türkiyədə "Azərbaycan Kitabı" mağazalarının açılmasına böyük ehtiyac duyulur.

**Kitabxanalarımız**

Bu yerdə istər-istəməz bizim kitabxanalar yada düşür, burada yeganə ümidimiz, demək olar ki, onlardır. İş belə gətirib ki, bu mədəniyyət ocağlarına biz həmişə ikinci-üçüncü dərəcəli bir "obyekt" kimi baxmışıq. Ötən əsrin ikinci yarısından başlayaraq kitabxanalara hər şeydən uzaq sakit bir məkan, yalnız kitab hərisləri, tələbə və elm əhlinə məxsus olub, onların görüşdüyü bir ocaq kimi münasibət bəsləyir, ətrafda hər şey dəyişdiyi halda, onları həyatda baş verən dəyişikliklərdən çox-çox kənarda saxlayırıq.

Zənnimizcə, indiki vəziyyətdə bütün kitabxanaların, o cümlədən, ali təhsil müəssisələrindəki kitabxanaların bir guşəsində və onların nəzarəti altında Kitab Mağazası və ya kitab satışı köşkləri (bukinist mağazası olarsa, daha yaxşı) yerləşdirilməli, buna əlavə, yeni texnologiya ilə təchiz olunmuş mərkəzi kitabxanalar, bir qayda kimi "Milli Kitab Sarayı", "Oxu Evi" adlandırılmalı, bu mədəniyyət ocaqlarında bir zamanlar fəaliyyət göstərən Kitabsevərlər Klubu, poeziya, ədəbi qiraət və s. dərnək və ocaqlar hökmən bərpa edilməli, Kitab Sarayları birmənalı şəkildə sabiq *Mədəniyyət Evləri*, *Mədəniyyət Saraylarını* əvəz etməlidirlər.

Bizcə, yenicə çapdan çıxmış önəmli kitabların "təqdimat-prezentasiya" mərasimləri şadlıq evləri, restoranlarda deyil, bir adət olaraq, Kitab Sarayları, Kitabsevərlər Ocağlarında keçirilməlidirlər. Bu, bir və ya bir neçə müəllifin çapdan çıxmış yeni kitablarının oxuculara təqdim olunması mərasimlərini vaxtaşırı hər ayın müəyyən gününə təyin edib, bu gün kitabxanada, bir adət təki *"Təqdimat günü"* sayılmalıdır. Həmin "təqdimat günləri" rəsmi, formal şəkildə deyil, dəyirmi masa arxasında çox səmimi və məhrəm şəraitdə keçirilməli, müəlliflərin və bu kitablar üzərində işləyib onu ərsəyə gətirənlərin fikir və mülahizələri, oxucuların sualları dinlənilməlidir. Təqdimat mərasimləri yalnız bir müəllifin kitabı ilə bağlı deyil, həmçinin bu və ya digər nəşriyyatın son "məhsulu"na baxış tərzində və ya kitabların dizaynı ətrafında da keçirmək olar, burada nəşriyyat sahibləri və mütəxəssisləri dinləmək pis olmazdı.

Onu da deməliyik ki, əksər naşirlər bu cür "görüş və sərgilər"dən, bir qayda olaraq, imtina edir, çünki çox yaxşı bilirlər ki, onların ərsəyə gətirdikləri kitab məhsulu həqiqi professionallıqdan uzaqdırlar. Demək olar ki, son illər kitablarımızın dizaynı açıq-aşkar və bir adət təki bu işdə naşı olan sifarişçi "kitab müəllifləri"nin təkidi, zövqü və səviyyəsinə uyğun (o, bundan ötrü pul verir və təbiidir ki, kitabını istədiyi kimi görmək istəyir, naşir isə əsla buna etiraz etmir) olaraq, ya da bol yerli-yersiz yerləşdirilmiş zövqsüz rəngli fotoşəkillərlə (bir qayda kimi, kitabın üst cildinə çıxarılmış müəllifin öz şəkili) dolu kitablar, yaxud əksinə, büsbütöv şəkilsiz, bəzək-düzəksiz, səhifələri sönük, maraqsız və darıxdırıcı mətndən ibarət kitablardırlar.

Sözün qısası, təqdimat mərasimlərinin sonunda müəlliflər öz kitablarını tədbir keçirən kitabxanaya, istərlərsə bu mərasimə gəlmiş oxuculara bağışlaya bilərlər. Bunlarla yanaşı, elə bu tədbir za-

manı kitabın topdan satışını, "hərracı"nı keçirmək, yaxud sadəcə kitab mağazaları nümayəndələrinin sifarişlərini də qəbul etmək olar. Əlbəttə, qabaqcadan onları bu tədbirə dəvət etmək şərtilə.

İş burasındadır ki, biz bu gün "oxu" dedikdə, üzərində hər hansı bir mətn həkk olunmuş kitab səhifələrini vərəqləyib səslə və ya səssiz oxumaq, mütaliə etmək işilə yanaşı, musiqinin müşayiətilə ucadan oxumağı da nəzərdə tuturuq ki, (vaxtilə ona "təğənni etmək" də deyirdilər) hər ikisinin kökü eynidir. Odur "Oxu evi, oxu zalı" *"Mahnı-musiqi zalı"* kimi də açıqlanarsa heç də pis olmaz. Bunu deməklə, xatırlatmaq istəyirik ki, əski adət-ənənəyə görə kitabxanaların qiraət zallarında tam sükut hökm sürməlidir ki, oxuyub-yazmaqla məşğul olan kitab əhlinə heç bir şey maneə olmasın. Doğru fikir və çox yaxşı bir ənənədir. Amma ayda bir-iki dəfə bu ənənəni və sükutu pozub "Qiraət-oxu zalı"nda şeir oxuma-bədii qiraət, aşıq dastanı məclisləri, meyxana yarışları və səs-küylü viktorinalarda musiqinin, lap mahnının səslənməsi qəbahətdirmi?

Odur ki, mərkəzi kitabxanalarda, xüsusilə ali məktəblərdəki kitabxanalar nəzdində, keçmişdə olduğutək, Poeziya Teatrı, Folklorsevərlər Ocağı, daha, nə bilim, nə kimi dəmək və ocaqların fəaliyyət göstərməsi, meyxana gecələri, tanınmış bir şeirin müxtəlif ifaçılar tərəfindən oxunması yarışlarının keçirilməsi maraqlı və səmərəli olar. Ən başlıcası kitabxanalarımıza yeni-yeni oxucular cəlb olunardı. Ümumilikdə, Kitab Evlərindəki "qiraətxana"lar yeni ab-hava ilə aşılanmalıdırlar.

Beləliklə, milli mədəniyyətimiz üçün ayrıca əhəmiyyət kəsb edən kitabların təqdimat mərasimlərini M.F.Axundov adına mərkəzi kitabxanada, Nizami muzeyində, sırf elmlə əlaqəli kitabların Elmlər Akademiyasının kitabxanasında, digər kitabların təqdimatını isə, bilavasitə gənc kitabsevərlərin daha çox toplanması mümkün olan universitet və tədris akademiyalarının kitabxanalarında keçirilməsi məqsədəuyğundur.

Buna əlavə, bir vaxtlar kitabxanalarda keçirilən "Oxucu konfransları" hökmən bərpa olunmalıdır. Burada kitab əhli arasında müsabiqə yolu ilə keçirilən sorğu əsasında, deyək ki, "ilin ən yaxşı, oxunaqlı kitabı"nı müəyyən etmək, hansı kitabın təkrar nəşrinə ehtiyac duyulduğunu, oxucuların hansı mövzuya həsr olunan kitabları daha çox mütaliə etmək istədiyini və s-ni öyrənmək olar. Həmən konfranslarda televiziyadakı "İntelekt" verilişinə oxşar müxtəlif viktorinalar, bilik yarışları təşkil edib qaliblərə kitab hədiyyə etmək olardı. Mərkəzi kitabxanalarla yanaşı, həmən konfrans və yarışları ali məktəblərin kitabxanalarında keçirmək daha səmərəli olardı. Ayrı-ayrı rayonlarda deyək ki, *"Filan Kitab Sarayı qonağımızdır"* adı altında səyyar "Oxucu Konfransları"nın təşkili lap yerinə düşərdi. Bu zaman yerli oxuculara yük maşınında quraşdırılmış xüsusi səyyar "Kitab köşkləri" lap yeni nəşrlərin satışını (deyilənə görə, şəhərlə müqayisədə kəndlərdə daha çox mütaliə ilə məşğul olurlar) təqdim etmək olar. Yay fəsli isə rayonlarda yerləşən İstirahət Evlərində, yaxud şəhərimizin böyük xəstəxanalarında kiçik oxucu konfransları keçirmək və buraya da yenə səyyar "Kitab köşkləri" gətirməklə, həm buradakı oxucuların rəyi, arzusunu öyrənmək, həm də yeni kitabların satışını təşkil etmək olar. Onu da deməliyik ki, ayrı-ayrı fərdlər istəsələr buradakı kitab satışlarını daimi biznesə çevirib nəticədə, yaxşı qazanc eldə edə bilərlər. Təəssüflər olsun ki, bir zamanlar vaxtaşırı keçirilən "Kitab Yarmarkaları", "Kitab günü" bayramları artıq və yəqin ki, həmişəlik unudulmuşdur...

Vaxtilə savadsızlığı ləğv etmək, insanlarda kitaba həvəs oyatmaq, oxu mədəniyyətini qaldırmaq məqsədilə nəşriyyatlar xalq nağılı, aşıq dastanı və s-dən ibarət ayrı-ayrı folklor nümunələrini silsilə şəklində və sadə tərtibatda çox ucuz kitabçalar çap etmişlər. Bəziləri bu kitabçaları alaraq oxuduqdan sonra onları qəzet kimi tullamış, digəriləri isə özlərində saxlamışlar. Bu yolla həm savadsızlıq qismən aradan götürülmüş, həm də insanlarda kitaba hədsiz maraq oyanmışdır. Bəlkə, keçmişin bu və digər təcrübəsindən bu gün də bəhrələnmək lazımdı?

Hal-hazırda artıq inamla demək olar ki, dünya klassikləri - Nizami, Füzuli, Xətai və digərilərinin əsərləri müasir gənc azərbaycanlı nəsli üçün anlaşılmaz qalaraq, onları hərtərəfli qavramaq (onların lap sonrakı sətri tərcümələrini belə) çətindir. Yaxşı olardı ki, başqa ölkələrdə olduğutək, onların "adaptasiya" edilmiş qısa, yığcam və sıxılmış variantları hazırlanıb çap olunsun ki, indiki gənclərimiz heç olmasa onları bu variantlardan tanıya bilsinlər. Həmin klassik əsərlərin əslini, orijinalını isə qoy ədəbiyyatşünaslar oxuyub onları bütün incəlikləri və təfərrüatına kimi araşdırıb, şərh etsinlər.

Zənnimizcə, bu gün kitabxanaların cəmiyyətdəki rolu, qayəsi və statusunda ciddi və əsaslı dəyişikliklər baş verməlidir. Kitabxanalar keçmiş və müasir milli mədəniyyətimizin mərkəzinə, himayədarı və təbliğçisinə çevrilməlidir. Ümumiyyətlə, kitabların istehsalı, yayılması və satışı əvvəllər fəaliyyət göstərmiş "Kitab Palatası"na oxşar bir Mərkəzdə birləşməli və bundan sonra bu işlər əsas etibarilə kitabxanalara həvalə olunub onlar tərəfindən həyata keçirilməlidir. Onların keçirdiyi hər hansı tədbir, bir qayda olaraq, vaxtaşırı televiziya kanallarında işıqlandırılarsa, çağdaş insanlarda kitaba maraq və həvəsi ikiqat oyatmaqda, onları kitab mağazaları və kitabxanalara cəlb etməkdə böyük rol oynaya bilər. Olimpiya idman kompleksləri ilə yanaşı, "Kitab Sarayları, Oxu evləri"nə də qayğı və maraq artırılmalıdır. Niyə idman yarışları televiziya ekranlarında hər gün, dönə-dönə göstərildiyi halda, hər yeni bir kitabın dünyaya "göz açması" faktı, önəmli hadisətək, televiziya tamaşaçılarına xəbər verilməsin?

Bu məsələ ilə çox ciddi məşğul olmağın vaxtı çatmışdır. Müəyyən işlər həyata keçirilməli, xüsusi qərarlar qəbul olunmalı, sərəncamlar verilməlidir. Ümidvarıq ki, Milli Məclis öz *"Kitabxanalara dair"* xüsusi qərarı ilə Milli Kitab Saraylarının yeni statusunu müəyyən edib, onlara geniş səlahiyyətlər verəcəkdir.

Kitab-oxu mədəniyyətindən uzaq düşmüş xalq get-gedə savadsız kütləyə çevrilir, onun gələcəyi isə şübhə altına alınır.



***Mobil ASLANLI HUNTÜRK***

# «CAHAN İGİD ƏRLƏRİNDİR...»

*(Hüseyn Cavidin yaradıcılığı fonunda)*

Hüseyn Cavid XX əsr Azərbaycan ədəbiyyatının yetişdirdiyi ən nadir tarixi simalardan biridir. O, istedadlı şair və dramaturq kimi ədəbiyyatımızın ən yaxşı ənənələrini layiqincə davam etdirən nəhəng fikir və söz korifeylərindən öncülü kimi yaddaşlarda silinməz iz qoymuşdur.

Böyük Cavidin çoxşaxəli ədəbi yaradıcılığında, habelə geniş ictimai-pedaqoji irsində insan konsepsiyası, onun əqli, mənəvi, əxlaqi-iradi və fiziki tərbiyəsi mühüm yer tutur. Cavidə görə, kamil insanı fiziki-cismani baxımdan yetkin olmadan təsəvvür etmək qeyri-mümkündür. Odur ki, böyük maarifçi öz pedaqoji fəaliyyətində ahəngdar və hərtərəfli nəslin yetişdirilib formalaşmasında fiziki tərbiyə və sağlamlıq məsələlərinə lazımi diqqətin artırılmasının zəruriliyini xüsusi qeyd edirdi.

H.Cavidin ədəbi irsi elə bir zəngin xəzinədir ki, onu araşdırdıqca qədim türklərin alp-ərdəmli soy-kökündə, etnogenezində qərarlaşmış qəhrəmanlıq, igidlik əlamətləri qanına, canına hopmuş, onların mənəvi ruhlarının mayası olan yaşayış qayda-qanunları, həyat tərzi qayəsinə dərindən yaxınlaşırsan. Cavidin "Topal Teymur" əsəri türk xalqının böyük sərkərdəsi Fateh Teymura həsr olunsa da, əsərdə yalnız Türküstanın deyil, bütövlükdə Turan aləminin uzaq qərinələrdən gələn alp-ərənlik ruhu çırpınır. Əsərdə Teymurun yeni bir savaşa hazırlaşdığından xəbərdar olan Olqa Orxana deyir: "Halbuki, onun üzündə heç bir şiddət və həyəcan izi yox..." hər zamanki vüqar və ciddiyyəti, hər zamankı halı üstündə".

Şair Orxanın sözləri ilə böyük iradi güc, səbr, dözümə malik olan qaplan şücaətli sərkərdənin daxili aləmini açıqlayır. Yəni, Cavid təkcə böyük sərkərdə olan Teymur obrazının təhlilinə çalışmır, o, eyni zamanda, fiziki-iradi keyfiyyətlərin insan xarakterində yaratlığı dəyişiklikləri, onun sonrakı fəaliyyətində əldə edəcəyi qabiliyyətlərin ilkin əsası kimi qabarıq cizgilərlə verir.

Həyati təcrübələr təsdiq etmişdir ki, çətin, ağır sınaqlara tab gətirmək üçün, hər şeydən öncə, insanın iradəsi tərbiyə edilməlidir. Heç təsadüfi deyil ki, qəhrəmanlığı yaradan böyük iradi əzm, təmkin, dəyanət, fiziki inkişaf, xarakter və özünəinamdır.

H.Cavid, cəsarəti, hünəri qarşısında baş əydiyi, səcdə etdiyi, sevərək yaratdığı böyük Əmir Teymurun yenilməz bir şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyə amillərinin, o cümlədən, mahir minicillik qabiliyyəti, ox-yay süzdürməsi, qılınc çalması, qurşaq tutması, habelə, səriştəli bir səyyad kimi ovçuluqda ad qazanması ilə yanaşı, gözəl şahmat bacarığını da vurğulayır: "Mənə xaqanlar xaqanı, Turağay oğlu Teymur derlər. Mən Yeşil şəhərdə dünyaya atıldım. Səmərqənddə nəşvünüma buldum. Babam Barlas qəbiləsinin hökmranı, özüm Gürgan nəslinin baş qəhrəmanı..."

Yerə, göyə sığmayan fəhm-fərasət, iti, çevik yaddaş, tanrının bəxş etdiyi cəsarət, qətiyyət, cismani dözüm və intəhasız fiziki qüdrət... hamısı bu diribaş türk cocuğunun cismini bələmişdi. Böyük hökmdar sonra istehzalı təbəssümlə əlavə edir: "Mən on iki yaşında ikən kəndimdə bir fərasət və böyüklük duymağa başladım. Mənimlə görüşənləri ciddi bir vüqar və hörmətlə qubul edərdim. On səkkiz yaşımda minicillik və avçılığa həvəs etdim. Vəqtimin çoxunu Quran oxumaqda, şahmat oynamaqda və at oynatmaqda keçirdim. Sonra Əmir Qazana yanaşdım, Hüseyn Kürd ilə savaşdım. İlyas Xocaya qoşdum, vəzirinlə pozuşdum. Oradan uzaqlaşdım, türkmənlərə əsir düşdüm. Sonra bir çox arkadaşla buluşdum. Blucistanla vuruşdum. Gah qalib gəldim, gah məğlub oldum. Ayaqdan bir yara aldım, iştə böylə ağsaq qaldım. Əvət mənəm yaralı arslan, mənəm Topal Qaplan".

Cavidin "Topal Teymur" əsərindəki mübariz ruh o dövrün türk məişətindən, onun qaynar həyatından doğmuşdur. Məlum həqiqətdir ki, qədim türk tayfaları döyüşkən nəsillər olub öz güzaranlarını, gün-dirriklərini hərb, savaş gücünə yaratmışlar. Dövrün ruhu, uzun müddət mübarizə meydanlarına davam gətirmək üçün bir çox fiziki təmrinlərin, iradi keyfiyyətlərin, güc-qüvvət püxtələşdirən savaşların aşılanmasını tələb edirdi. Cavid Teymur obrazının sadə təsvirində də həmin keyfiyyətləri elə bir ustalıqla təsvir edir ki, oxucu dərhal "bu orta boylu, qəvi bünyəli, omuzları geniş, barmaqları yuvarlaq, qılçaları uzun, əzələti ğayət sağlam" şəxsiyyətdə daxili səbat, böyük iradi qüvvə hiss edilir. Türk sərkərdəsinin qanlı, amansız qovğa və döyüşlərdən hər dəfə qalibiyyətlə çıxmasının başlıca səbəblərindən biri də türklərin hələ uşaqkən dava, savaş meydanlarında bərkiməsindən irəli gəlir: "Biz türklər çadır altında doğar, açıq səhralarda, qanlı müharibələrdə ölürüz... Müharibədə ölənlər evdə ölənlərdən sayca daha azdır. Mənce mübarizəsiz bir ömür, ömür deyil... Biz türklərə qürur və nəşə verən bir şey varsa, o da müharibə, o da qabiliyyətdir".

Cahanşümul bir sərkərdə, qüdrətli cahangir olan Teymur şəxsiyyəti insana hörmət, igidə, mərdə böyük sədaqət hissi təlqin edir. İldırım Bəyazidi əsir aldığı zaman ona rişxəndlə yazdığı, kinli, acı və zəhərli sözləri unudaraq deyir: "İştə, mən bu məktubdakı sözlərizizi unutdum və sizi əfv etdim. Yalnız əfv etmək deyil, hətta məhəbbətinizi də qazanmaq istərəm".

Məğribdən-məşriqə qədər hüdudsuz əraziləri dünyaya meydan sulayan Teymurun iradəsi qanlı mübarihələrdə, qovğalı savaşlarda, cəng döyüşlərində formalaşmışdır. Mütəşəkkil və nizami ordusu ilə dünyanı lərzəyə salan Teymur iti zehni, dəmir iradəsi, böyük siyasəti ilə nəinki şərq aləmində, eləcə də qərbdə tanınan, qəbul edilən hərb xadimi kimi ən nəhəng simalardan biri olmuşdur: "Sonra Cetləri boğdum, Cığatay elini Mavərünnəhrdən qovdum, Səmərqəndə girdim, xalqdan hörmət gördüm. Qurultay çağırdım, sözümü keçirdim. Bəlx şəhərinə vardım, Əmir Hüseynin işini bitirdim. Təkrar Səmərqəndə döndüm. Əmir elan olundum. Qəmərəddinlə çarpışıb qalib gəldim; Qızı Dilşad ağayı aldım. Xarəzmə girdim, qələlərini devirdim. Azərbaycan qucağıma atıldı. Kürdüstan təslim olaraq qurtuldu, Ermənistan və Gürcüstan xəracgüzarım oldu. Qaraqoyunlular üsyan etdi, ayaq altında əzildi. Şah Mənsur tüğyan etdi, bir anda başı kəsildi. Əvət mənəm cahangir dahi!... Mənəm hərb allahı!..."

H.Cavidin layiqli tədqiqatçılarından olan, yaradıcılığının çiçəkləndiyi bir dövrdə dünyasını çox erkən dəyişən məhrum tənqidçi Məsud Əlioğlu ədibin fiziki yaradıcılığında iradi - əxlaqi, əqli və intellektual baxımdan öz oxşarı olan fikir və qılınc cahangirlərinə istək və arzularını açıqlayır: "Cavid qəhrəmanlığın, cəngavərliyin pafosunda bütün ruhu ilə yaxından bağlı olmuş və əzəmətli şəxsiyyətlərin bədii surətini rəsm etməkdən daxili nəşə və sevinc duymuşdur"[1].

Cavid "Topal Teymur" əsərində orta əsrlər türk xalqları arasında populyar idman növü kimi tanınan gimnastika (akrobatika), həmçinin atüstü milli xalq oyunlarından olan çovkan, qəpəq, xüsusilə cirid oyunu, habelə müxtəlif oyun və əyləncələrin musiqinin müşayiəti altında keçirilməsini yada salır. Ədib bu idman oyunları və əyləncələrin musiqi sədaları altında həyata keçirilməsinin zəruriliyini də unutmur. "Hələ Hindistandan gəlmə canbaz və oyunçular, mizahçı və lətifəçilər, rəqqas və rəqqasələr... Bir tıqım cirit oyunları. Pəhləvanların güləşməsi, yaşıl-qırmızı rənglərlə boyanmış fillərin oynadılması, hər dürlü xanəndə və sazəndə, hər çeşit yarış və əyləncə gerçəkdən insanı sərxoş ediyor".

Dahi dramaturqumuz pərəstiş etdiyi, həm də mahir bilicisi olduğu şahmatdan personajların dili ilə, istər obrazlı, istərsə də bədii ifadə vasitəsi kimi məcaz şəklində yaradıcılığında bu oyuna mühüm yer ayırırdı. Qaynaqların məlumatına görə, bütün mənalı ömrünün hərbə həsr etmiş, saysız qovğa və gənc savaşlarda bərkimiş türkün cahangir sərkərdəsi asudə vaxtlarında şahmata sarılarmış.

Böyük xaqanın həyatında şahmatla bağlı bəzi maraqlı məqamlara digər mənbələrdə də tövsiyə edilir. "İldırımı Şahənşah Teymurun çadırına gətirdilər. Deyir o vaxt qələbə çalındığını görən Teymur oğlu Şahruxla şətrənc oynayırdı. Xidmətçi İldırımın gətirilmə xəbəriylə çadıra girdiyi an Teymur şahı ilə qarşıdakı qalanı və "Şah ruh!" demişdi *("ruh" şahmatda qala daşınının adıdır, yəni - top-M.A.)*. Bu qəribə təsadüfdən sonra Əmirin əsl adı Mülpüddünya Səid Bahadır olan oğlu Şahrux adını aldı".[2]

Tarixən türkün düşmənləri tərəfindən dünyaya zalım, zülmkar və qanİçən bir fateh kimi təqdim edilən Əmir Teymur şəxsiyyəti, Cavid yaradıcılığında rus şovinist imperiyasının tüğyan etdiyi bir dövrdə yüksək sənətkarlıqla təsvir edilmişdir. Yurduna, xalqına sonsuz məhəbbəti, ordusuna, əsgərinə qayğıkeş münasibəti, öz ulularından əxz etdiyi ağıl, iradə, səbr, fitri istedad məhz qüdrətli Teymur şəxsiyyətini xarakterizə edən yüksək insani keyfiyyətlərdir. "Orxan! Əcələ edirsən, mən səni alçaltmaq deyil, yalnız imtahan etmək istədim. Unutma ki, Teymur şahmat oynarkən belə, taxtadan yapılmış kiçik bir piyadanı qeyb etmək istəməz. Halbuki sən cəsur və əşsiz bir qəhrəmansan. Əvət, sənin məharət və cəsarətin işlədiyin qəbahətdən daha böyükdür. Olqaydı, o dəyərli yadigarı mükafat olaraq sənə bağışladım. Fəqət qəlbin onun, düşüncə və biliklərin bizim olsun".

H.Cavid "Şeyda" əsərində zülmə, istismara, haqsızlığa dözməyən azad, mütərəqqi fikirli Şeyda mürəttibləri mübarizəyə, inqilaba səsləyir, əzazil rus çarının istibdadına qarşı üsyana haraylayır. "Fironu qəhr edən Musa bir çobandan başqa bir şey deyildi. Lakin sarsılmaz bir ruhla meydana atıldı. Öylə qəddar, zalım bir imperatora qalib gəldi. Zöhhakı məhv edən Gavə yoxsul, arxasız bir dəmirçi idi. Fəqət atəşli bir qəlblə inqilaba başladı, öylə xunxar, məğrur bir hökmdarın taxtını başına çevirdi. Məcid əfəndi kimdir?... Yalnız o deyil, hətta onu qudurdan qocaman rus çarlığı belə bu gün yarın yerin dibinə batar."

Əsərdə Şeyda öz tale və xoşbəxtliyini istiqlal savaşında axtarır. Onun fikirlərini əxz edən mürəttiblər:

İştə yalnız qeyrət və cəsarət istəyir... Əvət, yalnız səbat və mətanət istəyir.

Həmin əsərin digər bir yerində isə, birinci mürəttibin dili ilə əsarət zəncirindən, zülm buxovundan qurtulmaq üçün yalnız və yalnız kişicəsinə mətanət, ərcəsinə hünər, türkcəsinə bitkin bir qeyrətin olması zəruriliyi vurğulayır: "Birinci mürəttib "İştə çarəsi qolay!... Yalnız kəmiyyət, qeyrət lazım... Yalnız ərkəkcə mətanət lazım... Yoxsa, hərarət kimi üzü üstə süründükcə, əslə ağ gün görmiyəcəyik. Həm də gündən-günə əzilib məhv olacağıq".

Ədibin "İblis" əsərində zatən alicənab, humanist, nəcib vəhşiyar bir insan kimi təqdim edilən Elxan, həm də qorxmaz, fədakar bir surətdir. Elxan həm də nəcib və təmiz adamların dadına çatır, onlara dərhal əl tutub fəlakətdən xilas edir. O, son məqamda mücərrəd ideallara qapanıb, fövqəladə, ilahi bir qüvvəyə malik olmağa xəyal bəsləyir. Elxan ideal bir arzu ilə, allaha sığınmaq, əsl olmaq arzusu ilə yaşayır.

Dramaturq "İblis" əsərində gücü, fiziki dözümü, dəyanəti və şücaəti ilə seçilən İbn Yəmin barədə daha müfəssəl söhbət açır. Hərb döyüşlərində misilsiz hünər və rəşadət göstərmiş bu ərəb sərkərdənin

1. Məsudoğlu Ə. Hüseyn Cavidin romantizmi. Bakı, Azərnəşr, 1975, səh.57.
2. Rafiq Özdək. Türkün Qızıl kitabı, III c., Bakı, "Yazıçı", 1996, səh.70.



bitini heç bir qüvvə qorxuda bilmir. Mübarizələr burulğanında aslan tək çarpışan bu cəsur sərkərdənin dili ilə şair deyir:

**Yaşamaq istəyirmisən, çarpış,**
**Hərbə qoş, həp vuruş, ya əz, ya əzil!**
**Onsuz irmək murada çox müşkül.**

Məslək və amal rəmzi, cəsarət və qətiyyət mücəmməsi olan Cavid yaradıcılığında "Həyat mübarizəsi" mövzusu xüsusi əlahiddə yer tutur. Şairin "İblis", "Haqqını sən mübarizə ilə alarsan" və s. əsərlərində bu problem daha ətraflı açıqlanır. Vaxtilə zorakılıq, əsarət, köləlik, məlunluq və s. kimi mürtəce, təcavüzkar qüvvələri yox edib, azadlıq haqqını qazanmaq üçün o, xalqı mübariz olmağa, fədakarlıq göstərməyə səsləyir. Şair "Qüruba qarşı" adlı şeirində buna rəğmən yazırdı:

**Çalış həm qalib ol, mərd ol! Bu aydın bir həqiqətdir:**
**Cahan bir nazənin dilbər ki, yalnız mərdə qismətdir...**

Böyük ədib "Uçurum" əsərində Uluğ bəyin dilindən Qərbdən Şərqə keçən bir çox zərərli təsirləri, gənclərin əxlaq həddini aşması və onların mənəvi şikəstliyə sürükləməsi kimi halları tənqid edir.

Cavid zaman-zaman ölkədə Avropa mühitinin yayılmasına, türk gənclərinin bu meşşan mədəniyyətin biabırçı ünsürlərinə heç cür dözə bilməyərək, vaxtilə dünyaya meydan oxumuş Mete, Çingiz, Teymur, Sultan Mehmet sələflərinin çılızlaşdmasına dözə bilmir, onları vətənpərvər, hünərli, əqli və fiziki baxımdan kamil övladlar kimi gormək istəyir:

**...Sərsəm firəng ədası,**
**Sərxoşluq, iffətsizlik**
**Sardı bütün gəncləri,**
**Zəhərləndi getdikcə**
**Məmləkətin hər yeri.**
**Qəhrəman Oğuzların,**
**Böyük Ərtoğrulların,**
**Sarsılmaz xələfləri**
**İmdi hən sapqın, azğın...**

H.Cavid "Xəyyam" pyesində türkün fövqəlbəşər cahangirlərindən olan səlcuq hökmdarı Alp Arslanın coşğun döyüş ehtirasını, vüruş meydanlarında qeyzlənmiş şir kimi göstərdiyi əfsanəvi hünər və rəşadətini, yenilməzliyini yada salır.

Şair nəhayətsiz güc və dözümə, dəmir iradəyə malik ulu babasının cahangirliyindən sanki həzz duyur, ulu xələfinin yenilməz rəşadətini vəsf etməkdən ilham alaraq yüksək poetik ustalıqla onu təsvir edir:

**Alp Arslan, o məğrur insan**
**Geri dönmüş sanıram Ceyhundan.**
**Orada etmişdi əhali üsyan,**
**Görünür, susmuş o qızğın tufan.**

Səlcuqların növbəti cəng savaşında rumlar üzərində parlaq qələbə çalmış Alp Arslanın şərəfinə təmtəraqlı ziyafət verilir. Qüdrətli xaqanın bu müzəffər yürüşündən xoşnud olan xalqa Xacə Nizam (Xacə Nizammülmülk Həsən ibn Əli, səlcuq sultanlarından Alp Arslan və Məlik şahın vəziri olmuşdur - M.A.) böyük sərkərdənin bahadırlıq şücaətini, yenilməz qəhrəmanlığını haqlı olaraq dərin fərəh və ilhamla vəsf edir:

**Sarayın iştə böyük aləmi var...**
**Şanlı bayramdır, əzizim, bu gecə,**
**Var ziyafətlə geniş əyləncə.**
**Bu gün Alp Arslan için xoş bir gün,**
**Qeysəri-Ruma o gəlmiş üstün.**

Böyük ədibin 1910 - cu ildə yazdığı birpərdəli "Ana" pyesi onun ilk mənzum dramıdır. Əsərdə təsvir olunmuş hadisələr Dağıstan mühitində cərəyan edir. Pyesin qəhrəmanı Səlma xanım qorxubilməz, aslan ürəkli, məğrur bir qadındır. Onun Qanpolad adlı oğlu da hünərvər, mərd və mübariz bir gəncdir. Ana qəddar, cani, başkəsən, quduz xislətli adamların təqibinə sinə gərərək öz ciyərparasını ərənlərə xas igidliklə, mərdliklə mühafizə edir:

**...Bütün dünya toplanıb gəlsə hərgiz,**
**Allah şahid, mən onu verməm elə.**
**İnsaf yoxmu? Səlma ölməmiş hələ!**

Dramaturq "Maral" adlı əsərində türk sərkərdələrini, fütuhatlar fəth etmiş nəcib, ali, adil və fazil padşah və xaqanlarını qədərincə tanımadığımızdan dərin təəssüf hissi keçirir.

çevrilmişdi. Səyavuşun Əfrasiyab şahın qardaşı Gərşivəzlə vuruş meydanında təkbətək cəngə atılması əsərdə belə göstərilir:

**Birər-birər başlandı doyus,**
**Gərsivəzə üstün güldi Səyavus...**
**Halal olsun qəhrəman adı.**

Əsərdə öz yurdunun basılmazlığının qeyri-mümkünlüyünə istinadən yağılara meydan oxuyan Səyavuş, sərdarı olduğu qoç igidlərinin cürəninə və özünün sarsılmaz qəhrəmanlığına arxayınlığı sayəsində rəqiblərinə bəri başdan hökmüranə və tutarlı şəkildə öz fiziki və hərbi qüdrətlərini bəyan edir:

**Yurdumuz çeynəyən**
**Sayğısız hər kim olsa.**
**İnan ki, çox sürmədən,**
**Diz çökəcək qarşıda.**
**Bizdə dəmir biləklər,**
**Çəlik qollar az deyil;**
**Saldırıcı hünərlər,**
**Mərd oğullar az deyil.**

Dəyanət, igidlik və fədakarlıq Cavid qəhrəmanlarının ən başlıca xüsusiyyətidir. Saraya gətirilən Səyavuşun fiziki-iradi hazırlığı, sağlamlıq və gözəlliyi baxanları valeh edir. Keykavus hərəmi gözəl Südabə və onun gənc cariyələri də o şəstlə baxan cavanmərdin vüqarlı duruşuna, əzəmətinə heyranlıqlarını gizlədə bilmirlər:

**Səyavuşun sağlığına içdilər,**
**O, həm gənc və gözəl, həm də cəngavər...**
**Əvət çeviklikdə bənzər qaplana,**
**Qəhrəmandır, üstün gəlir arslana.**
**Gücsüz tanrıdansa güclü qəhrəman,**
**Səcdəyə, hörmətə layiq hər zaman.**

İran və Turan dəliqanlılarının toqquşduğu bir məclisdə İran səncəvərinin dili ilə: "Haydı, qorxunc olur hücumu türkün", - deməsi təsadüfi deyil. Əsrlər boyu çoxlu ərazilər fəth edən, zəbt etdiyi əraziləri həm də abadlaşdıran və həmin hüdudsuz əraziləri öz əsarətində saxlaya bilən türk xalqının əsgərləri şübhəsiz ki, igid və cəngavər olmalı idi. Təsadüfi deyil ki, şair Səyavuşun anasının türk, atasının fars olduğuna bir incəliklə toxunur:

**Çünki əqrəba.**
**Dönüklük etməzmi ya?**
**Anasıdır turanlı...**

Yazıçı igid və cəngavərlik motivlərilə zəngin "Səyavuş" pyesində əsərin baş qəhrəmanı "Ər gərək ər meydanında çarpışa" deyərək hayqıran gənc Səyavuşun obrazında fiziki kamillik yolu ilə formalaşan hünərin, rəşadətin, bahadırlığın işartılarına daha çox təsadüf edirik. İntəhasız güc və qüvvəti, misilsiz şücaəti və yenilməzliyilə küllü cahanda adı dillər əzbəri olan Rüstəmi Zaldan pəhləvanlıq dərsi almış Səyavuş, öz mürşüdü Rüstəmin fiziki ustalığını, cismani qüdrətini haqlı olaraq təqlid edir, onun əfsanəvi qəhrəmanlığından fəxarət duyur, şərəf hissi keçirir:

**Cocuqluqdan alışdım göyə,**
**Zal oğlu Rüstəmdən aldım tərbiyə.**
**Dağlarda yaşadım, ceyran ovladım,**
**Böylə şənliklərə mənus olmadım.**

Dramaturq "Xəyyam" pyesində də böyük türk xaqanlarının, hökmdarlarının ov işinə olan isti münasibəti, onların ovçuluq məharəti barədə də bəzi işartılara toxunulur. Ta Atilladan tutmuş Abbas Mirzəyə qədər hədəfi sərrast tuşlayaraq quşu dimdiyindən vuran elə bir türk sultanı, türk padşahı tapmaq olmaz ki, mütəmadi olaraq ovçuluqla məşğul olmayaydı. Cavid ovdan qayıdan Məlikşahın sətəlcəm olub nasazlamasına işarə edərək yazır:

**Məlikşah**
**Ah, aman doğranıb durur ciyərim...**
**Xəlifə**
**Bir səbəbsiz deyil, bu, zənn edirəm**
**Məlikşah**
**Soyuq aldım keçən gün ovda ikən...**

Yazıçı digər əsərlərində olduğu kimi, "Azər" pyesində də ovçuluqdan, ov işindən söhbət açır. Əsərdə göstərilir ki, həmişə yaz fəslini xatırladan güllü - çiçəkli, bahar qönçəli Urmiya şəhərində yaşayan Bəbir xana qulluq edən kor çalğıçı Neyzən bir mahir ovçu imiş. Odur ki, ovçuluğa, ov sənətinə vurğun olan Bəbir xan kor Neyzənin məhz səriştəli bir səyyad olduğu üçün, ona rəğbət bəslər və həmin əməlinə görə də ondan heç vaxt ayrılmazdı:



**Çox çevik bir ovçu idim... Çox zaman**
**Kəndisindən ayırmazdı Bəbir xan.**
**Bir gün yenə ova hazırlanırkən...**
**Ovçular atlanıb yola düşdülər.**

Azərbaycan ədəbiyyatı tarixində türkçülük məhəbbəti ilə yeni bir çığır açmış, həyatını xalqının azadlığı yolunda fəda etmiş, onun bədii - ictimai təfəkküründə əbədi yer tutmuş, dözülməz məşəqqət və məhrumiyyətlərə mərdliklə sinə gərməklə mətanətlə tab gətirmiş Cavidin yaşadığı sağlam həyat tərzi, onun həmvətənlərinin, xüsusilə də gənclərin fiziki təkmilləşməsi üçün bir örnəkdir.

Keşməkeşli və əzablı bir həyat yolu keçmiş H.Cavid əqlin qüdrəti, zəkanın hünəri ilə yanaşı, hətta uzaq Sibirin sərt iqliminə yalnız mətin xarakteri, dəmir iradəsi, sağlam vücudu və mənəvi dözümü ilə tab gətirə bilmişdir. Mərhum tənqidçi M.Əlioğlu haqlı olaraq göstərirdi ki, Hüseyn Cavidin sənəti, görüşləri və yaradıcılıq taleyi haqqında düşünərkən fikrimizin fövqündə çox əzəmətli və məğrur bir sima, incə, həssas, həm də son dərəcə qüdrətli bir istedad canlanır.

Müasirlərin qeyd etdiyi kimi, şəxsi həyatında mütəharrikliyə, fiziki məşğələlərə, bədən tərbiyəsi hərəkətlərinə, piyada gəzintiyə, habelə fiziki əməyə böyük həvəs göstərən ədib, bütün bunların sayəsində geniş qəlbli, sağlam vücudlu, möhkəm bədənli və olduqca təkidli bir şəxsiyyət kimi yaddaşlarda qərarlaşır. Təmiz havada piyada yerişlə gəzməyə daha çox diqqət yetirən, istər uşaqlıqda, istərsə yetkin yaşlarında fiziki işdən çəkinməyərk, bağ işləri və digər sahələrdə zəhmətlə qatlaşmağa üstünlük verən Cavid, məhz bunların sayəsində uzaq Sibirdəki sərt iqlim, şiddətli şaxtaya dözə bilərdi.

Sevimli xalq şairimiz Süleyman Rüstəm yazırdı ki, "1927-ci ilin dekabr ayı idi... O vaxt indiki "Nərgiz" kafesinin yerində ikimərtəbəli, köhnə bir bina vardı. İkinci mərtəbədə Briqadze adlı yaxşı bir fotoqraf işləyirdi. Bakıya gələn böyük simaların, hörmətli yazıçıların və dövlət xadimlərinin şəkillərini çəkirdi.

Mayakovski (böyük rus şairi - M.A.) ilə birlikdə fotoqrafxanaya getdik. Biz (Hüseyn Cavid, Məmməd Arif, Mixail Yurin, Mixail Kamski, Nəsir Quluzadə, Q.Stroqonov, P.Tarasov) şəklimizi çəkdirmək üçün üst-başımızı düzəlştdik. Mayakovski zarafata başladı... O, boş bir araq şüşəsi tapıb, Briqadzeyə dedi ki: "Bu şüşə mütləq şəkildə görünməlidir. Çünki bir parça şairlərin ilham mənbəyidir!". Biz gülüşdük. Hüseyn Cavid bir az pərt olub, dedi: "Əyər bu araq şüşəsi şəkildə çıxacaqsa, onda mən şəkil çəkdirmək istəmirəm!.

Mayakovski, sonra kağızdan düzəldilmiş süni bir gül buketi götürüb öz ayaqları arasına qoydu.

- Nə eybi, araq şüşəsi olmasın, süni gül dəstəsi olsun, bir para şerlərin də əsas mövzusu budur".

Keçən əsrin əvvəllərində xalqımızın maariflənməsi yolunda misilsiz xidmətləri olmuş Cavid Naxçıvan, Tiflis, Bakı və s. kimi şəhərlərdə gənc nəslin təlim-tərbiyəsi işində müəllim kimi böyük fəaliyyət göstərmişdir. Cavid millətimizin gələcəyi olan övladlarımızın taleyi, bütövlükdə türk gəncliyi, çağdaş Turan dövlətinin möhtəşəmliyi və əzəmətini yüksəldərək cocuqların geniş ensiklopedik biliyə, dərin edudisiyaya və dünyagörüşünə malik olmaq arzusu ilə yanırdı.

Böyük maarifçi, humanist insan və alovlu vətəndaş Hüseyn Cavid millətinin cocuqlarına şənlik, fərəh və şadlıq gətirən fiziki inkişafı, fiziki möhkəmliyi, hər şeydən öncə, onların həyatının başlıca qayəsi kimi təsbit edirdi. O, insanı istər cismən, istərsə də ruhən sağlam, gümrah, nikbin həyata hazır çox qərəzli bir varlıq kimi görmək istəyirdi.

Vətənini, millətini alovlu, sonsuz məhəbbətlə sevməsi, Cavidi xalqının gələcəyi olan gənclərin sosial problemləri ilə yanaşı sağlamlıq, fiziki tərbiyə məsələləri də çox ciddi narahat edir və onu bu mövzuda bir sıra məqalələr yazmağa təsviq edir. Məktəblər, səhhəti ixlal etməyəcək dərəcədə havadar, uca yerlərdə yapılmalıdır. Pis, murdar, üfunətli yerlərdən uzaq olmlıdır. Xəstəxana, həbsxana, məzarıstan kimi yapı (bina)lara yaxınlaşmamalıdır. Xırıltı, gurultusu çox olan mövqelərə yanaşmamalıdır. Məktəb binası mümkün dərəcədə günəş yerlərdə vaqe olmalı, rütubəti çox olan yerlərdən həzər edilməlidir. Günəşə mane olacaq kölgələr ilə mühat olmalıdır. Çünki çox xəstəliklərin günəşsizlik və rütubət üzündən vücuda gəldiyi aydın bir həqiqətdir.

"Günəş girməyən yerə təbiblər girər" məsəli məşhuri-aləmdir. Buracıqda bir az haşiyə çıxmaq istərəm. "Rütubət" sözilə "tərbiyə" kəlməsini düşündükcə Naxçıvandakı "Məktəbi-tərbiyə" ilə onu istila edən müzürri-səhhət rütubəti xatırlamamaq bir dürlü əldən gəlməyir".

Böyük ədibin fikrincə, məktəb şəraitində sağlamlığa xidmət edən ümdə imkanlardan istifadə edilməsi həmin vəzifələrin yerinə yetirilməsinə bilavasitə zəmin yarada bilər. Xalqının gözəl gələcəyi olan, onun tarixini, mədəniyyətini, iqtisadi varlığını mənəvi dəyərlərini, Vətən, torpaq təhsibini, onun dövlət bütövlüyünü qoruya biləcək təpəli, qeyrətli övladların əqli və fiziki kamilləşməsindən narahat olan Cavid yazır: "Məktəbin dörd-beş arşın (rus arşını) enində geniş bir dəhlizi (koridoru) və tənəffüsxanəsi olmalıdır. Hər məktəbin mümkün dərəcədə özünəməxsus bir də gözəl bağçası olmalıdır ki, cocuqlar orada sərbəst gəzinə bilsin, saf, təmiz hava ala bilsin".

Səriştəli bir pedaqoq, müqtədir maarif xadimi olan H.Cavid insanın şəxsiyyət kimi formalaşmasında, onun hərtərəfli və ahəngdar inkişafında təlim və tərbiyənin əhəmiyyəti, məktəb və müəllimin rolu və s. vacib problemləri əks etdirən məqalələrinin birindəki "Həsbi-hal"da buna daha geniş izahat verir. Avropanın Kant, Spenser kimi dahi filosof və qabaqcıl pedaqoqların fikir və mülahizələri-

**"Hər güclü elə bilir ki, Allahdı"**

Məhz Allaha şərik çıxanların sayı artdığı üçün, allahsızlıq baş aldığına görə dünyanı bəşəri vəhşilik vəhşət caynağına almaqdadır.

Bəşəri vəhşətə, qətliama nümunə kimi şair Xocalı faciəsini xatırladır:

**"Xocalıdan qaçqın uşaq**
**uzanıb üzü kainata**
**Allah kimi təm-təkdi".**

"Allah kimi təm-təkdi" deyimi orijinal olduğu qədər də çoxmənalıdır. Misradakı "kimi" qoşması Xocalıdan qaçqın uşağın timsalında insanın, fərdin mübtəla olduğu faciədə necə tənha, kimsəsiz olmasının ölçüsünü, daha doğrusu, ölçüsüzlüyünü göstərir. Bunu dil zənginliyinin daha bir faktı kimi də dəyərləndirmək olar.

Milli faciənin bədii üslubda bəşəri müstəviyə çıxarılmasının və bəşəri faciə kimi dəyərləndirilməsinin poetik təsdiqini görmək üçün bu bədii tabloya baxmaq kifayətdir.

**"Səkkiz yaşlı**
**müharibə əlili oldu...**
**O daha uşaq deyildi,**
**Anlaya bilmirdi**
**günahsız körpə**
**Taleyin əli ilə niyə döyüldü.**
**Uşaqlığı sağ ayağı ilə**
**bir yerdə itmişdi,**
**ayağı ilə**
**qaçıb getmişdi".**

Bu poetik səhnə dünyanın bütün dillərində eyni həyəcanı, ağrını doğurmaq iqtidarındadır.

Uşaqlar, körpələr təkcə bir millətin, xalqın deyil, bütövlükdə bəşəriyyətin gələcəyidir. Tanrı dinindən, dilindən, rəngindən asılı olmayaraq, bütün uşaqları, körpələri günahsız elan etmişdir. Xocalıdan olan qaçqın uşağın bir ayağını itirməsi, sadəcə bir körpənin şikəstliyi deyil, əslində, gələcəyin şiksətliyinə, natamamlığına işarədir. Bu misralar şairin həm də bəşərin, insanlığın gələcəyi ilə bağlı həyəcan təbilidir.

**"Ey yaradanlar yaradanı,**
**bir körpə üz tutub sənə,**
**cavab versənə!"**

Tanrı susur, Dünya susur, Zaman susur...

Lakin F.Qoca qəlbindəki milli ağrılara rəğmən, bəşəri humanizm mərtəbəsindən enmir, mənsub olduğu xalqın mənəvi ucalığını sənətkar ləyaqətilə nümayiş etdirir. Bəşəri müstəvidə milli heysiyyata toxunmadan milli naqisliyin bədii ustalıqda ifşası poeziyamızda orijinal düşüncənin təzahürüdür. Fikrət Qoca bədii-diplomatik üslubun yaradıcısı kimi də novatordur. Bədii fakta diqqət yetirək:

**"Ermənilər də hamı kimi**
**bir millətdi.**
**Ermənilik əlindən**
**onların da günü illətdi.**
**Ermənilik kiminin canındadı,**
**kiminin qanındadı,**
**kiminin də vicdanındadı".**

Bu poetik parça sübut edir ki, əsərin dəyəri, sadəcə, ədəbi-bədii parametrlərlə məhdudlaşmır.

Qətiyyətlə deyərdim ki, qlobal məzmun daşıyan, yüksək sənətkarlıq nümunəsi olan bu poemanın poeziyamızda alternativi yoxdur. Burada mütəfəkkir şair idrakının bədii qüdrəti humanitar dəyərlər sisteminin bütün sərhədlərini cəsarətlə, bəsirətlə genişləndirir.

Əsərdə milli kimliyin qədim və çağdaş məqamlarının orijinal poetik rənglərlə, obrazlı fəlsəfi tutumla, milli koloritdə çoxmənalı mənzərəsi heyrətamizdir.

**"Şah İsmayıl Xətai**
**oturub pyedestalda**
**Yayın bu isti günündə**
**Oturub doğum evinin önündə".**

Poetik fikir misradan-misraya keçdikcə, "doğum evi" ifadəsi milli mövcudluğun, milli qüdrətin, həqiqətin ilk ünvanı, beşiyi kimi səciyyələnir. Daha sonra şairin qan yaddaşından, ruhundan qopan bədii xitab ulu haray kimi səslənir.

**"Ey yol keçənlər,**
**maşınları əyləyin,**
**Sərkərdəyə**
**Salam verib, keçin!"**

Bu misralar, həm də milli özünüdərkə, milli birliyə çağırış himni kimi də qiymətlidir.

Mənəvi gözəlliyi özündə ehtiva edən mütəfəkkir düşüncənin daha bir mənzərəsini seyr edək:

**"Yaşlı,**
**kasıb bir ağdaşlı**
**Həccə gedə bilmədi,**
**Gedənlərin dalınca baxıb**
**Dərin bir ah çəkdi.**



**Türyançayın üstündə,**
**yol yanında**
**bir fidan çinar əkdi**
**düz yeddi yüz il əvvəl."**

Bədii təsvirin poetikasında Allaha inamın, sevginin işığını görürük. Allah yolunda minnətsiz görülən xeyirxah əməllər əbədi yaşayır ("yeddi yüz il" belə tarixi sübutlardan biridir) və əməl sahibini də yaşadır. O, sadəcə ən gözəl arzuların çin olmasına əbədi zəmanətdir (çinar ağacı kimi):

**Bir çinar deyil,**
**ağdaşlı bir kişinin**
**yamyaşıl Həcc arzusudu.**
**Hər yarpağı**
**Peyğəmbərə yazılmış**
**bir məktubdu,**
**Əlində tutubdu."**

Bu misralar şair qəlbinin sözlərə hopmuş xeyirxahlıq simfoniyasıdır.

F.Qoca dünyanı bürüyən faciələrin səbəbini insanların ikiüzlü, hiyləgər varlığa çevrilməsində görür. Müqəddəs rəmzlərin məkrli əməllər üçün istifadəsini bəşəri ağrı kimi dəyərləndirərək, dünyəvi faciənin, törədilən rəzalətin mahiyyətini acıb ortaya qoyur:

**"Axı niyə? Niyə? Niyə?**
**Bu sualdan çoxdu sanki,**
**Üzünü yana döndərdi.**
**Utanmadı, Peyğəmbərin**
**adına bir salavat göndərdi**
**terrorist!.."**

Daha sonra dünyada hökm sürən ikili yanaşma meyillərinin həyasızcasına artmasını allahsızlığın yeni təzahürü kimi önəmsəyir.

**"Adam qansız olar,**
**dinsiz olar,**
**imansız olar,**
**Allahsız olar adam!**

Təcavüzkarın, siyasi mərkillərin, terroristin dindən, imandan, insanlıq qayəsindən uzaq olmasını nifrətlə xatırladan şair öz mövqeyini bədii ümumiləşmə yolu ilə bəşəri müstəviyə çıxarır.

**"Allahdı hər şeydən,**
**hər kəsdən üstün,**
**Allahı yoxdur terroristin."**

"Düşündüklərimdən mənzərələr" poemasında dünyadakı dini sivilizasıyaların, cəmiyyətdəki mənəvi eybəcərliklərin, texniki tərəqqinin, müharibələrin, sevginin, "olumla-ölümün", vətənpərvərliyin və daha neçə-neçə bəşəri mətləbin fəlsəfi kodu poetik məzmunda açıqlanır. Bu poemanı məzmundakı milli və bəşəri vəhdətə, poetik təxəyyül genişliyinə, bədii-fəlsəfi mahiyyətinə görə mənzum roman-metafora adlandırmaq olar.

İnsanları xeyirxahlığa, yaxşı əməllərə sahib olmağa çağıran şair, uca Yaradanın rəğbətini qazanmağın yeganə yolunu ancaq yaxşılıqlar yaratmaqda görür. Onun iman işığına bələnmiş poetik niyyəti əbədiyyət nəğməsi kimi səslənir.

Poema ilk baxışdaca aydın, lakin poetik dərinlik baxımından qeyri-adi məna çoxqatlılığı ilə tamamlanır.

**"Allah təkdi,**
**ey yaranmışlar,**
**Yaradana da kömək gərəkdi"**
**Ucaltmaq üçün onun adını**
**Siz də yaxşılıqlar yaradın..."**

Müdrik bədii-fəlsəfi ümumiləşmədir. Yəni Allahı, səni yaradanı sevirsənsə, onun adını əziz tutursansa, bu sevgiyə layiq iş gör, yaxşılıqlar yarat. Əsl ibadət budur. Yaradan yaradılanı sevir...

Daha bir məna çözümü:

Allah fövqəladə qüdrət sahibi olaraq böyüklükdə, müqəddəslikdə təkdir. İstər müstəqim, istərsə də məcazi mənada Allahın heç bir köməyə ehtiyacı yoxdur. Şair də məhz Allaha deyil, "yaradana da kömək gərəkdir" deyir. Doğrudur, Allah həm də yaradandır. Ancaq yaradan sözü heç də həmişə Allah mənasını ifadə etmir. Yaradan sözündə inkişaf, tərəqqi, icad etmək məzmunları da mövcuddur. Bundan əlavə, Yaradan sözü ulu əcdadlara, soy-kökə də şamildir. Bu baxımdan yaxşılıqlar yaratmaq, həm də mənsub olduğun soyun, nəslin nəcabətini, adını yaşatmaq, ucaltmaqdır. Göründüyü kimi, fikrin içindəki poetik mənanın çalarları rəngarəngdir. Bu ifadə dil faktı kimi də cox maraqlıdır.

Poemada düşüncə üfüqlərinin sərhədsizliyi, təsvir və ifadə vasitələrinin dolğunluğu, zənnimizcə, onu əsl sənət incisinə çevirmişdir. Düzü, böyük şair qardaşımın bu uğuru məni ürəkdən sevindirdi və sevincimi "Azərbaycan" jurnalının oxucuları ilə də bölüşmək istədim.

haqlıdır. Bu səbəbdən də Hacı Ələmdarın qəzəllərində klassik qəzəllərdən gələn izafət tərkiblərinə bol-bol rast gəlirik. Bu cəhəti onun "Külliyyatı"na ön söz yazan qocaman qəzəlxan Ənvər Nəzərli də qeyd edir: "Mahirin şeirləri bəzi nöqsan və qüsurlardan da xali deyildir. Bunlardan ən başlıcası bir sıra şeirlərində dilinin qəliz olması, izafət birləşmələrindən istifadə etməsi, hər oxucunun başa düşə bilmədiyi rəmzi ifadələr, obrazlar, kökü müxtəlif hədis və dini rəvayətlərə söykənən fikirlər, müddəalar vardır ki, bunlar şeirə ağırlıq gətirir". Biz də bu deyilənlərlə razılaşırıq. Amma bütün bunlar onun qəzəllərinə ciddi mənada elə bir xələl gətirmir, çünki bu qəzəllərdə məna var, sözün obrazlı ifadəsi var və ən başlıcası, beytlərarası, misralararası məntiq pozulmur.

Üçüncüsü isə, Hacı Ələmdar əruz vəznini yaxşı bildiyi üçün onun əksər bəhrlərinə müraciət edir. Bu cəhəti biz müasir qəzəlxanlarımızın demək olar ki, əksəriyyətində görmürük. Onlar daha çox əruzun rəməl bəhrinə müraciət edirlər.

Nəhayət, onu da qeyd edim ki, Hacı Ələmdarın qəzəlləri -istər sadə yazılsın, istərsə də içində farsdan, ərəbdən gələn izafət tərkibləri ilə diqqəti çəksin- müasir qəzəllərdir, yəni XX-XXI əsr şairinin bədii təfəkküründən doğub bu qəzəllər. Onun lirik qəhrəmanı da bizim müasirimizdir, amma öz klassik sələfləri-Məcnun və Fərhad kimi eşqinə sadiqdir, cəfa çəkməyi çox sevir.

Hacı Ələmdarın qəzəlləri Füzulinin "Qəzəl de ki, məşhuri-dövran ola.." tələbi ilə səsləşir desək, əsla yanılmarıq. Onun əksər qəzəlləri mənaya xidmət edir, amma təbii ki, bu məna və məzmun emosional biçimdədir, qafiyə, rədif, daxili qafiyə ustalığındadır, hər beytin məzmunu ilə formanın harmoniya təşkil etməsi həmin qəzəllərin başlıca məziyyətinə çevrilir.

**Könül, dünya qəmin tərk et, dolan meyxanə-meyxanə,**
**Atıb dərdi, həyatın vur başa məstanə-məstanə.**

**Bəla sərməstiyəm saqi, gətir vəslin şərabından,**
**Məni məst eyləməz hər mey, içəm peymanə-peymanə.**

**Olaydı kaş bir gün ki, gələydi nazlı cananım,**
**Deyəydim dərdimi cananıma, bir danə-bir danə.**

**Onunçün atəşi-hicranına pərvanə tək yandım,**
**Baxıb bu halıma bilsin nədir pərvanə, pərvanə.**

**Könül, divanəlikdən qaç, səfa yoxdur biyabanda,**
**Baxar bu dəştdə, ancaq görər divanə, divanə.**

**Həqiqətdən nişan varsa sözündə yaz-yarat Mahir,**
**Danışma boş yerə ancaq çalış, əfsanə-əfsanə.**

"Külliyyat"da divan ədəbiyyatına daxil edilən klassik şeir formalarının əksəriyyəti öz əksini tapıb. Bununla belə, biz onların hər biri haqqında müfəssəl məlumat vermək fikrində deyilik.Qısaca deyə bilərik ki, qəzəllərdən sonra "Külliyyat"da kəmiyyət etibarilə çoxluq təşkil edən dini şeirlərdir. Əlbəttə, bu şeirlərin ürəkdən yazıldığına heç bir şübhəmiz yoxdur, bu şeirlər Hacının Allaha sevgisindən yaranıb. Amma qəzəllərindəki məna yükünü, obrazlı ifadə tərzini bu şeirlərdə o qədər də hiss etmədik.Sonra gəlir "ibrətnamələr" - nəsihətvari şeirlər, elə bunlar da məzmun etibarilə dini şeirlərinin davamıdır. Sonra gəlir təxmislər. Təxmis yazmaq bədii ustalıq tələb edir. Hacı Füzulidən, Seyid Əzimdən və Vahiddən təxmislər edib. Beşlik formasında olan, hər bəndin üç misrası özündən, iki misrası başqa bir şairin qəzəlindən ibarət olan təxmisdə məna ardıcıllığına riayət etmək, eyni bəhri, ölçünü saxlamaq məharət tələb edir. Füzulinin Həbibidən təxmis etdiyi "Gər səninçün qılmayam çak, ey büti-nazikbədən..." qəzəlini xatırlayaq. Hacı Ələmdarın təxmisləri də bizə bu baxımdan maraqlı təsir bağışladı:

**Ey könül, eşq aləmin səhra bilən arif deyil,**
**Yar kuyin cənnəti-məva bilən arif deyil,**
**Dəhridə hər şeydə bir məna bilən arif deyil,**
**"Hikməti-dünyavü mafiha bilən arif degil,**
**Arif oldur bilməyə dünyavü-mafiya nədir.."**

**Oldu Adəm nəsli ey aşiq, fərağın məhrəmi**
**Saldı qəm girdabına, Mahir kimi çox həmdəmi,**
**Tutdu bu dünyanı yeksər ahü fəryadın qəmi,**
**"Ahü fəryadın Füzuli, incidibdir aləmi,**
**Gər bəlayi-eşq ilə xoşnud isən qovğa nədir.."**

Sonra digər klassik şeir formaları gəlir: müxəmməslər, mürəbbelər, fəxriyyələr, qitələr, müxtəlif şeirlər. Bir sözlə, divan ədəbiyyatının formal tələblərinə əməl olunur.

Hacı Ələmdar Mahirin bu kitabları haqqında qeydlərimizi onun "Söz" qəzəlindən bu iki beytlə tamamlayaq. Qoy Hacı bu misralardakı poetik həqiqətə sadiq qalsın:

**Tut sözü daim özündən yüksək, ey şair könül,**
**Çünki ALLAH göndəribdir Əhmədi-Muxtarə söz.**

**Hər sözə meyl etmə Mahir, salma qiymətdən sözü,**
**Çıxdı bir gün bəlkə, qiymət almağa bazarə söz.**

**Vaqif YUSİFLİ**

# ◆ KİTAB RƏFİ




**AKADEMİK MƏMMƏD CƏFƏR CƏFƏROV. TALEYİ VƏ SƏNƏTİ.**
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2009.**

Bu kitab görkəmli ədəbiyyatşünas, akademik M.C.Cəfərovun ömür və sənət yoluna həsr edilmişdir. Kitabda Abbas Zamanovun "Ustadımız, müəllimimiz", Bəkir Nəbiyevin "Mənim mənəvi mükafatım", İsa Həbibbəylinin "Elmi məktəb yaratmış 10 görkəmli alim", Yaşar Qarayevin "Müqəddəs sadəlik məktəbi", Yavuz Axundlunun "Müqəddəslik rəmzi", Hüseyn Həşimlinin "Akademik Məmməd Cəfər Cəfərov Azərbaycan romantik lirikasının yeni janrları haqqında", Məhərrəm Cəfərlinin "İnsani keyfiyyətlərin ucalığı" və s. məqalələr təqdim olunur.

Kitabın tərtibçisi akademik İsa Həbibbəylidir.

**AZƏRBAYCANIN ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ. HƏMİD ARASLI.**
**Bakı, "Elm", 2009.**

Bu biblioqrafik kitab akademik Həmid Araslının (1909-1983) keçdiyi elm yolunu məlumat və informasiyalarla təqdim edir. Kitabda H.Araslıya həsr olunmuş məqalələr, elm, mədəniyyət və incəsənət xadimlərinin H.Araslı haqqında fikirləri, onun müxtəlif illərdə çap olunmuş monoqrafiyaları, dərslikləri, bədii əsərləri, tərcümələri, elmi-publisistik məqalələri haqqında qısa məlumatlar öz əksini tapmışdır.

Tərtibçilər Əmin Əfəndiyev və Zakirə Əliyevadır.




**ADİL CƏMİL. "MANAS" DASTANI.**

**Bakı, "Nurlan" nəşriyyatı, 2009.**

Azərbaycan oxucusuna ilk dəfə təqdim olunan bu dastan möhtəşəm qırğız eposu "Manas"ın Keneş Yusupov tərəfindən nəsr şəklinə salınmış və Adil Cəmil tərəfindən tərcümə edilmiş yeni, həm də ən yığcam variantıdır. Manasın dünyaya gəlişindən dünyadan gedişinə qədər baş verən olaylar - epos qəhrəmanının uşaqlıq illəri, düşmənlərlə döyüşdə ilk qələbələri, kalmık və çinli basqılarına cəsarətli cavabları, yurdunun və xalqının azadlığı naminə qanlı savaşlara atılmağı, ata yurdunu işğaldan azad etməyi və s. əsərdə yığcam, bütün gerçəkliyi ilə öz ifadəsini tapıb.

Redaktoru professor Hüseyn İsmayılovdur.

**FOLKLOR VƏ ETNOQRAFİYA. № 3.**
**Bakı, 2009.**




